


## Corc Dik: "İsrail-Azərbaycan münasibətləri strateji xarakter daşıyır"

2




# Səs

№ 221 (6421) 3 dekabr 2021-ci il. Qiymətі 40 qəpik


# Qarabağ iqtisadi rayonu nə vəd edir?




5

# Heydər Əliyev işığının nurlandırdığı yol!



**Bu yol - Prezident,** Ali Baş Komandanımız Qalib Lider İlham Əliyev yolunun dönməz və sarsılmaz yoludur

8



## Qarabağ ermənіləri Azərbaycana yalvardı: "Qışdan çıxmaq üçün bizə kömək edin"

## Bakıda neçə küçəyə şəhid adları verilib?



# Ronaldoya şok!



### Məhkəmədə dindiriləcək

Turin prokurorluğu "Mançester Yunayted"in hücumçusu Kriştiano Ronaldonun dindirilməsini təşkil etməyi planlaşdırır. Bu barədə "La Gazzetta dello Sport" məlumat...

16



## Tofiq Yaqublunun döyülməsi: təxribatdan doğan təxribat!

14

Məlum olduğu kimi, helikopter qəzasında şəhid olmuş hərbçilərin dəfn mərasimi günü AXCP və "Milli Şura" təmsilçilərinin...



## ERMƏNİ SİYASƏTÇİ: "Paşinyan hakimiyyəti rüşvət piramidası qurub"

4

# Azərbaycanla Türkiyə

## arasında dostluq və qardaşlıq münasibətləri bütün sahələrdə uğurla inkişaf edir

**Dekabrın 2-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Respublikasının Ali Təhsil Şurasının sədri Erol Özvarı qəbul edib.**

AZƏRTAC xəbər verir ki, Erol Özvar Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırdı. Prezident İlham Əliyev Türkiyənin dövlət başçısının salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Rəcəb Tayyib Ərdoğana çatdırmağı xahiş etdi.





### Prezident İlham Əliyev Türkiyənin Ali Təhsil Şurasının sədrini qəbul edib

Erol Özvar baş vermiş helikopter qəzası zamanı hərbçilərin həlak olması ilə bağlı dövlətimizin başçısına başsağlığı verdi. Prezident İlham Əliyev başsağlığına görə təşəkkür etdi.

Görüşdə Azərbaycanla Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyi vurğulandı, təhsil sahəsində əməkdaşlığın əlaqələrimizin möhkəmlənməsində rolu qeyd olundu. Erol Özvarın səfərinin bu sahədə əlaqələrimizin genişləndirilməsi işinə töhfə verəcəyinə əminlik ifadə edildi.

Söhbət zamanı təhsil sahəsində əməkdaşlığın perspektivləri, o cümlədən ölkəmizdə Azərbaycan-Türkiyə birgə universitetinin yaradılması və digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı. Sonda dövlətimizin başçısına xatirə hədiyyəsi təqdim olundu.

# "ABŞ beynəlxalq sülh və təhlükəsizlik məsələlərində Azərbaycanla əməkdaşlığı yüksək dəyərləndirir"

**Dekabrın 2-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov ATƏT-in Nazirlər Şurasının Stokholmda keçirilən 28-ci iclası çərçivəsində ABŞ Dövlət katibi Entoni Blinkenlə görüşüb.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, görüşdə tərəflər, ikitərəfli əməkdaşlıq gündəliyi üzrə, o cümlədən iqtisadi, energetika, təhlükəsizlik və digər sahələrdə əməkdaşlığın inkişafı məsələlərini müzakirə ediblər.





Nazir Ceyhun Bayramov qarşı tərəfə 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanatın imzalanmasından sonra bölgədə mövcud olan vəziyyət, işğaldan azad edilmiş ərazilərdəki dağıntıların miqyası, mina təhlükəsi, sərhəd məntəqəsində gərginliyin səbəbləri, azad olunmuş ərazilərdə həyata keçirilən bərpa və yenidənqurma işləri barədə ətraflı məlumat verib.

Söhbət zamanı Azərbaycanın enerji sahəsində verdiyi töhfə, həm mühüm neft-qaz layihələrinin təşəbbüskarı və icraçısı olduğu, həm də Avropa İttifaqının enerji təhlükəsizliyində mühüm amil kimi çıxış etdiyi qeyd olunub. ABŞ rəsmisi beynəlxalq sülh və təhlükəsizlik məsələlərində Azərbaycan ilə əməkdaşlığı, o cümlədən ölkəmizin Əfqanıstanda fəaliyyətini yüksək dəyərləndirib.

Mütəşəkkil cinayətkarlıq, terrorçuluq, narkotik vasitələrin qanunsuz dövriyyəsinin qarşısının alınması, sülhə və təhlükəsizliyə təhdid və manea törədən bir sıra hallarla mübarizədə Azərbaycanın rolu vurğulanıb. Görüşdə tərəflər, habelə qarşılıqlı maraq doğuran regional və qlobal məsələləri müzakirə ediblər.

# Corc Dik: "İsrail-Azərbaycan münasibətləri strateji xarakter daşıyır"



İsrail Azərbaycanın müstəqilliyini tanıyan ilk ölkələrdən biridir. Ölkələrimiz arasında diplomatik münasibətlərin tarixi 30 il bundan əvvələ gedib çıxır. İsrail-Azərbaycan münasibətləri strateji xarakter daşıyır. AZƏRTAC xəbər verir ki, bu fikirləri İsrailin Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Corc Dik dekabrın 2-də keçirilən mətbuat konfransında deyib. Səfir bildirib ki, xalqlarımızın tarixi keçmişi var. Yəhudilər Azərbaycan ərazilərində uzun illərdir yaşayırlar. Xalqlarımızın tarixi əlaqələri çox dərindir.

Səfir qeyd edib ki, Azərbaycan Vətən müharibəsində Qələbə qazanaraq ərazi bütövlüyünü bərpa edib. İsrail hökuməti hər zaman Azərbaycanın müstəqilliyini və ərazi bütövlüyünü dəstəkləyib.

İsrail səfiri ölkələrimizin bir çox sahələrdə əməkdaşlıq etdiyini diqqətə çatdıraraq koronavirusla mübarizədə də səylərin birləşdirildiyini vurğulayıb.

Onun sözlərinə görə, ölkələrimiz arasında əlaqələrdə ən mühüm hadisə İsraildə Azərbaycan Ticarət Nümayəndəliyinin açılmasıdır. Corc Dik İsraillə Azərbaycan arasında əlaqələrin bundan sonra da davamlı olaraq inkişaf edəcəyinə və daha da genişlənəcəyinə əminliyini bildirib.

# "Azərbaycan xalqı həm bir alim, həm də bir vətənpərvər insan kimi Əziz Səncərə böyük hörmət və sevgi bəsləyir"

## Prezident İlham Əliyev dünyaşöhrətli alim Əziz Səncəri qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 2-də ABŞ-ın Şimali Karolina Universitetinin biokimya və biofizika fakültəsinin professoru, Kimya üzrə Nobel mükafatı laureatı, DNT sahəsində mühüm kəşfləri ilə tanınan, ABŞ Milli Elmlər Akademiyasının üzvü, dünyaşöhrətli alim Əziz Səncəri qəbul edib.

AZƏRTAC xəbər verir ki, Əziz Səncər Vətən müharibəsində Qələbə münasibətilə Prezident İlham Əliyevi təbrik etdi və bu Qələbədən bütün türk dünyasının qürur hissi keçirdiyini dedi. Dövlətimizin başçısı təbriklərə görə təşəkkürünü bildirdi.



Prezident İlham Əliyev Vətən müharibəsi zamanı Əziz Səncərin Azərbaycanın haqlı mövqeyini şəxsən dəstəkləməsini və təbrik etməsini yüksək qiymətləndirərək bunun ölkəmizin haqq səsinin dünyada ucaldılması işinə xidmət etdiyini vurğuladı.

Dövlətimizin başçısı müharibə dövründə ermənilərin Gəncəni raket atəşinə tutması nəticəsində valideynlərini itirmiş uşağa Əziz Səncərin yardım etməsini xatırladaraq, bunu böyük insanpərvərlik nümunəsi kimi qiymətləndirdi. Əziz Səncəri türk dünyasının önəmli şəxsiyyəti kimi dəyərləndirən Prezident İlham Əliyev onun ölkəmizə səfərə gəlməsindən məmnunluğunu bildirdi və Azərbaycan xalqının ona həm bir alim, həm də bir vətənpərvər insan kimi böyük hörmət və sevgi bəslədiyini xüsusi olaraq vurğuladı. Sonda xatirə şəkli çəkdirildi.



## Prezident İlham Əliyev ABŞ Etnik Anlaşma Fondunun prezidentini qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 2-də ABŞ Etnik Anlaşma Fondunun prezidenti və təsisçisi Mark Şnayeri qəbul edib. AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycanda tarixən mövcud olan tolerant mühit, bütün xalqların və dinlərin nümayəndələrinin, o cümlədən yəhudi icmasının ölkəmizdə bir ailə kimi mehribanlıq və əmin-amanlıq şəraitində yaşaması məmnunluqla vurğulanıb.**

Digər dini və etnik icmaların nümayəndələri ilə yanaşı, yəhudi icmasına dövlət səviyyəsində yaradılan şərait və göstərilən diqqət, qayğı yüksək qiymətləndirilib, yəhudilərin ölkəmizin ictimai həyatında fəal iştirakı qeyd edilib.

Söhbət zamanı Bakıda keçirilən və Mark Şnayerin iştirak etdiyi "Mədəniyyət naminə sülh" qlobal kampaniyasının Tərəfdaşlar Forumu Azərbaycanın mədəniyyətlərarası dialoqun inkişafına verdiyi növbəti töhfə kimi dəyərləndirilib.

# Ceymstaun Fondunun saytında Soçi görüşü ilə bağlı məqalə yerləşdirilib

**ABŞ-ın Ceymstaun Fondunun nəzdində fəaliyyət göstərən "Eurasia Daily Monitor" saytında Azərbaycan Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin böyük məsləhətçisi Vasif Hüseynovun "Soçi görüşündə Ermənistan, Azərbaycan və Rusiya müharibədən sonrakı regional vəziyyətlə bağlı mühüm razılaşmalar əldə ediblər" sərlövhəli məqaləsi dərc edilib.**



The JAMESTOWN FOUNDATION Global Research & Analysis

ABOUT US PROGRAMS REGIONS PRESS/MULTIMEDIA STORE ARCHIVES Search ..

EURASIA DAILY MONITOR

**At Sochi Summit, Armenia, Azerbaijan and Russia Reach Critical Agreements on Post-War Regional Situation**

Publication: Eurasia Daily Monitor Volume: 18 Issue: 179

By: Vasif Huseynov

*December 1, 2021 06:31 PM Age: 8 hours*

Russian-Azerbaijani-Armenian trilateral summit in Sochi, November 26 (Source: TASS)

On November 26, the leaders of Armenia and Azerbaijan met for the second time since the end of the Second Karabakh War (September 27–November 9, 2020). The meeting took place at the initiative of the Russian government in a similar way to the last trilateral summit of the leaders, in Moscow, on January 11 (see EDM [1][2], January 12). Their meeting was originally planned to be held on November 9 (the first anniversary of the end of 44-day war), but was later postponed at the request of Armenian Prime Minister Nikol Pashinian (Civilnet.am, November 23). On November 23, in a press conference live streamed on his Facebook page, Pashinian said he conditioned such a meeting to the discussion of "major issues," including the fate of Armenian detainees held in Azerbaijan. He proposed a later date, since the 9th of November symbolized a "bitter and difficult day" for Armenians (YouTube, November 23).

Following the postponement of the meeting, tensions between Armenia and Azerbaijan escalated along their interstate border, leading to the worst clashes since the end last year's war. As a result of intense fighting in the direction of the Kalbajar and Lachin regions, seven Azerbaijani service members were killed and ten were wounded, according to the country's Ministry of Defense (Mod.gov.az, November 17). In turn, at his press conference on November 23, Pashinian said that at least six Armenian soldiers were killed and 32 captured during the incident (YouTube, November 23.)

PUBLICATIONS

CHINA BRIEF

EURASIA DAILY MONITOR

TERRORISM MONITOR

MILITANT LEADERSHIP MONITOR

COMMENTARIES

HOT ISSUES

SPECIAL PROJECTS

BLACK SEA BATTLEGROUND

RUSSIA'S PATH TO THE HIGH-TECH BATTLESPACE

THE GROWING IMPORTANCE OF BELARUS ON NATO'S EASTERN FLANK

STEALTH WAR

AZƏRTAC xəbər verir ki, məqalədə noyabrın 26-da Ermənistan və Azərbaycan liderlərinin görüşünün İkinci Qarabağ müharibəsi başa çatdıqdan sonra sayca ikinci görüşü olduğu bildirilib. Görüş Rusiya hökumətinin təşəbbüsü ilə liderlərin bu il yanvarın 11-də Moskvada keçirilən son üçtərəfli görüşünə bənzər şəkildə baş tutub. Görüş əvvəlcə 44 günlük müharibənin başa çatdığı 9 noyabr tarixinə təyin edilsə də, sonradan görüşün vaxtı Ermənistanın baş naziri Nikol Paşinyanın xahişi ilə dəyişdirilib. O, daha gec tarixi təklif etməsini 9 noyabr tarixinin ermənilər üçün "acı və ağır" gün olması ilə izah edib.

Məqalədə qeyd edilib ki, iclasın təxirə salınmasından sonra hər iki ölkənin dövlət sərhəddində gərginlik artıb və bu, ötən il müharibənin sonundan bəri ən ağır toqquşmalara gətirib çıxarıb. Soçi görüşü bu gərginliklər fonunda baş tutsa da, regionda gələcək sülh və əməkdaşlıq perspektivi üçün ümidverici nəticələr verib. Məqalədə Azərbaycanın xoş niyyət ifadə edən addımlarına da toxunulub və bildirilib ki, noyabrın 26-da, görüşə saatlar qalmış Azərbaycan tərəfi iki erməni əsilli şəxsi qarşı tərəfə təhvil verib. Bundan əvvəl, noyabrın 15-də Azərbaycanın Baş naziri Əli Əsədov bildirib ki, 2020-ci il dekabrın 22-dən İrəvan və Bakı ümumilikdə 122 əsgər mübadiləsi aparıblar. Onlardan 105-i Ermənistana, 17-si isə Azərbaycana qayıdıb.

Soçidə görüşdən sonra keçirilən mətbuat konfransında iştirakçı liderlər humanitar məsələlərin müzakirə edildiyini bildiriblər. Rusiya Prezidenti Vladimir Putin jurnalistlərə bu məsələdə əhəmiyyətli irəliləyiş əldə olunduğunu bildirib.

Ekspertin fikrincə görünən odur ki, tərəflər digər mübahisəli məsələlər, o cümlədən regional nəqliyyat əlaqələrinin açılması və Ermənistan-Azərbaycan sərhədinin delimitasiyası və demarkasiyası üzrə də razılıq əldə ediblər. Üçtərəfli bəyanata görə, Ermənistan və Azərbaycan əsasən qarşılıqlı beynəlxalq sərhədlərini tanıyıb, delimitasiya və demarkasiya prosesinin başlanması üçün tədbirlər görməyə razılaşıblar. V.Putin mətbuat konfransında bildirib ki, tərəflər bu ilin sonuna qədər bu prosesi həyata keçirmək üçün mexanizm yaratmağı vəd ediblər - bu, birgə bəyanatda nəzərdə tutulduğu kimi, Rusiyanın iştirakı ilə beynəlxalq komissiyanın yaradılmasını da əhatə edə bilər.

Soçi görüşünün birgə bəyanatında Prezident İlham Əliyev, baş nazir Nikol Paşinyan və Prezident Vladimir Putinin qəbul etdikləri qərarlarla bağlı çox da təfərrüatlara varılmır. Bu, xüsusilə regional nəqliyyat dəhlizlərinin açılması ilə bağlı vədlərə aiddir. V.Putin sadəcə olaraq bildirib ki, baş nazir müavinlərinin yaxın müddətdə Moskvada bəzi nəticələri ümumiləşdirəcək və noyabrın 26-da razılaşdırılmış qərarları açıqlayacaqlar. Bu ilin 11 yanvarında yaradılmış işçi qrupa regional dəmir yolu və avtomobil yolu layihələri ilə bağlı öz hökumətlərinə fəaliyyət planlarını (o cümlədən icra qrafiklərini) təqdim etmək tapşırılıb. Beləliklə, o vaxtdan bəri bir sıra görüşlər keçirən baş nazirin müavinləri tezliklə öz işlərinin nəticələrini açıqlaya bilərlər.

Ekspert məqalədə qeyd edib ki, Soçidə verilən üçtərəfli bəyanatda və ondan sonrakı mətbuat konfransında müharibədən sonrakı gündəliyin digər iki mübahisəli məsələsinə toxunulmayıb. Birincisi, tərəflərdən heç biri Qarabağın yekun statusu məsələsini qaldırmayıb. Ümumiyyətlə, indi belə görünür ki, hətta Ermənistan tərəfi də İrəvanın bu məsələni əvvəllər olduğu kimi qaldırmasının artıq mümkün və ağlabatan olmadığını başa düşür. Baş nazir Paşinyanın məsələni ərazi mübahisəsi deyil, "hüquq məsələsi" kimi səciyyələndirib.

Soçi görüşünün tərəfləri, həmçinin 1994-cü ildən Ermənistan-Azərbaycan sülh danışıqlarının əlaqələndirilməsi üzrə vəzifə daşıyan beynəlxalq missiyanın - ATƏT-in Minsk qrupunun adını çəkmədilər. Paşinyanın qapalı danışıqlara başlamazdan əvvəl üç liderin birgə görüşü zamanı qrupun roluna qısaca toxunmasına baxmayaraq, görüş bir daha nümayiş etdirdi ki, Azərbaycan-Ermənistan münasibətlərinin mövcud kontekstində Minsk qrupunun kifayət qədər məhdud gündəliyi var və bununla da Soçi görüşü Rusiyanın müharibədən sonrakı sülh prosesində əsas və mübahisəsiz vasitəçilik mövqeyini bir daha təsdiqlədi.

Müəllif yekunda bir diqqətçəkən məqamı qeyd edir ki, Ermənistan və Azərbaycan liderlərinin dekabrın 15-də Brüsseldə Avropa İttifaqının vasitəçiliyi ilə Şərq Tərəfdaşlığı sammiti çərçivəsində təşkil olunması planlaşdırılan görüşündən də mühüm qərarlar və sənədlər gözlənilmir. Gedişat göstərir ki, Moskva hələlik Azərbaycan-Ermənistan münaqişəsinin həlli prosesində aparıcı rolu özündə saxlayır.

# “Otuz ilə yaxın danışıqlar prosesində Azərbaycana təqdim olunan sülh ədalətli sülh deyildi”

**Azərbaycan xalqı hər zaman sülhpərvər xalq olub. Azərbaycan xalqının tarixinə, mədəniyyətinə, ədəbiyyatına baxdıqda görərik ki, xalqımız həmişə sülh çağırışında və sülh axtarışında olub. Regionda da həmişə sülhün təmin olunması və möhkəmlənməsi istiqamətində ardıcıl səylər göstərib.**




AZƏRTAC xəbər verir ki, bu sözləri jurnalistlərə açıqlamasında Azərbaycan Respublikası Prezidentinin köməkçisi-Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev deyib.

Prezidentin köməkçisi qeyd edib ki, Azərbaycanın xarici siyasətində də Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz dünyaya həmişə sülh mesajlarını göndərib, regionda vaxtilə mövcud olmuş Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həlli üçün Azərbaycan davamlı səylər göstərib. Amma sülh dedikdə, ilk növbədə, ədalətli sülhdən danışmaq lazımdır. Təəssüflər olsun ki, 30 ilə yaxın davam edən danışıqlar prosesində Azərbaycana təqdim olunan sülh ədalətli sülh deyildi. Bu, işğalın nəticələrinin qəbul edilməsi, Azərbaycan ərazilərinin işğal altında olmasını özündə ehtiva edən sülh idi ki, bu da Azərbaycan dövləti üçün qəbuledilməzdir.

H.Hacıyev daha sonra bildirib ki, Soçi görüşünün nəticələri müsbət qiymətləndirilir. Görüş nəticəsində qəbul edilmiş birgə Bəyanatda xüsusilə nəqliyyat dəhlizlərinin açılması ilə əlaqədar məqamı qeyd etmək istərdim. Bu, xüsusilə Zəngəzur dəhlizi ilə əlaqədar məsələlərdir. Bu xüsusda sənəddə qeyd olunur ki, qısa müddət ərzində Azərbaycan, Ermənistan və Rusiya arasında yaradılmış nəqliyyat məsələləri üzrə işçi qrup çərçivəsində tezliklə görüş keçirilsin. Belə bir görüş də dünən Moskva şəhərində baş tutdu. Bundan irəli gələn digər məsələlər üzrə də tərəflər arasında müxtəlif müzakirələr aparılır: ”Azərbaycan dəfələrlə bəyan edib ki, biz Ermənistanla Azərbaycan arasında sərhədlərin toxunulmazlığı və ərazi bütövlüyü prinsipi əsasında sərhədlərimizin delimitasiyası və demarkasiyası prosesinin aparılmasına hazırıq. Burada, ilk növbədə, Ermənistan özü reallığı dərk etməli və başa düşməlidir. Ermənistan işğal siyasətinə görə 30 il ərzində sərhəd fəlsəfəsini və ideyasını başa düşməmək vəziyyətində olub. Belə ki, Azərbaycanın işğal olunmuş əraziləri əsnasında onlar üçün sərhəd sanki təmas xəttindən başlayırdı. Bu da işğalçılıq siyasətinin nəticəsi idi”.

Bu gün yeni reallığın olduğunu deyən Prezidentin köməkçisi qeyd edib ki, indi Azərbaycanın sərhədləri var - Zəngilan, Qubadlı, Laçın və Kəlbəcər istiqamətində ölkəmizin sərhədləri təsbit olunub. Artıq Ermənistan bu sərhədlərə hörmət etməlidir.

Hikmət Hacıyev, həmçinin vurğulayıb ki, Soçi görüşündə qəbul olunmuş Bəyanatdan və aparılmış intensiv müzakirələrdən çıxış edərək digər məsələlərin də irəli aparılması üçün təmaslar davam etdirilir.

”Ərazilərimizin kütləvi şəkildə minalanmasında Ermənistanın əsas məqsədi Azərbaycanın işğaldan azad olunmuş torpaqlarında quruculuq və məcburi köçkünlərimizin qayıdışı prosesinə mane olmaq, Azərbaycanın mülki şəxsləri və hərbçiləri arasında maksimum dərəcədə çox xəsarət və ölüm hallarına səbəb olmaq idi. Minanın nə məqsədlə qoyulduğunu hər kəs başa düşür. Yəni, mina nə məqsədlə qoyulmasından asılı olmayaraq, öz qurbanını gözləyir. Təəssüf ki, Ermənistan tərəfindən Azərbaycan ərazilərinin minalarla kütləvi şəkildə çirkləndirilməsi həyata keçirilib.”

Azərbaycanın bu məsələni beynəlxalq ictimaiyyət qarşısında da qaldırdığını vurğulayan Prezidentin köməkçisi bildirib: ”Biz beynəlxalq ictimaiyyətə bir daha müraciət etmək istərdik ki, bu məsələdə məlumatlandırma artırılmalıdır. Azərbaycanın minatəmizləmə fəaliyyətlərinə beynəlxalq ictimaiyyət, xüsusilə BMT və onun aidiyyəti strukturları tərəfindən də dəstəyin əsaslı şəkildə artırılmasına ehtiyac var”.

Hikmət Hacıyev deyib ki, mina insanlar arasında hər hansı bir fərq qoymur. Hər bir insan onun potensial qurbanı ola bilər. Ümumiyyətlə, cəmiyyətimizdə mina təhlükəsi ilə bağlı maarifləndirmə işləri aparılır. Bundan sonra da media vasitəsilə, müxtəlif sosial media imkanlarından istifadə edərək mina təhlükəsi barədə maarifləndirmənin artırılmasına ehtiyac var ki, insanlarımız bu dəhşətli bəlanın qurbanı olmasınlar.



## Elçin Quliyev helikopter qəzasında həlak olan hərbi qulluqçuların məzarını ziyarət edib



2 dekabr tarixində Dövlət Sərhəd Xidmətinin rəisi general-polkovnik Elçin Quliyev və qurumun digər vəzifəli şəxsləri Dövlət Sərhəd Xidmətinin hərbi helikopterinin qəzaya uğraması nəticəsində həlak olmuş hərbi qulluqçular polkovnik Füzuli Cavadovun və kapitan Xəyyam Əliyevin məzarlarını ziyarət edib, onların əziz xatirələrini ehtiramla yad edərək məzarları üzərinə gül dəstələri qoyublar. SİA-nın məlumatına görə, hər iki hərbi qulluqçu ailələrinin arzusu ilə müvafiq olaraq, Bakı şəhərinin Zirə və Əmircan qəsəbələrində dəfn ediliblər. Hərbi qulluqçuların ailələrinə baş çəkilmiş və baş sağlığı verilib.

**ERMƏNİ SİYASƏTÇİ:**

## “Paşinyan hakimiyyəti rüşvət piramidası qurub”

“Nikol Paşinyan hakimiyyəti rüşvət piramidası qurub. Onlar həmişə təmiz əllərdən danışıblar, amma əslində Ermənistanda ”yeni rüşvət piramidası”nı da məhz onlar formalaşdırır”. SİA erməni mediasına istinadən xəbər verir ki, bunu erməni siyasətçi Suren Surenyants deyib.



O bildirib ki, Nikol Paşinyanın komandası yerli özünüidarəetmə seçkilərində qalib gəlmək üçün hər yola əl atır: ”Paşinyanın komandasında rüşvətlə səs alanlar da var. Bunu necə etdikləri tam olaraq bəlli deyil. Yəqin ki, onların bəd əməlləri tezliklə üzə çıxacaq. Xalq kapitulyatora bel bağlamamalıdır. Paşinyan heç də siyasətdə ”ağ adam” deyil. Bir müddət sonra bunu hamı anlayacaq”.

## Azərbaycanda yanvar ayında devalvasiya olacaq?





**“Hesab edirəm ki, Azərbaycanda devalvasiya ilə bağlı heç bir real fundamental səbəb mövcud deyil. Ölkəyə daxil olan valyutanın həcmi ölkədən xaric edilən valyutanın həcmindən xeyli çoxdur”. Bu sözləri SİA-ya açıqlamasında iqtisadçı Elşad Məmmədov deyib. Onun sözlərinə görə, eyni zamanda bu proses dayanıqlıdır: ”Yəni, uzun müddət bu proses davam edir. Bununla yanaşı ölkənin suveren qızıl valyuta aktivlərinin həcmi ölkədəki pul bazasından dəfələrlə çoxdur”.**

Elşad Məmmədov sözlərinə belə davam edib: ”Xarici ticarətdə müsbət saldo davam edir. Ona görə də Azərbaycanda devalvasiyanın həyata keçirilməsi üçün hansısa fundamental səbəb mövcud deyil. Düzdür, bizim əsas xarici ticarət tərəfdaşlarımızda devalvasiya proseslərinin baş verməsi, Azərbaycanın qeyri-neft, qeyri-xammal sektorunun inkişafı nöqteyi-nəzərdən yerli ?istehsalçılara müəyyən problemlər yaradır. Söhbət ilk növbədə Türkidən gedir. Amma hesab edirəm ki, valyutamızın sabit saxlanılması üçün bütün fundamental əsaslar mövcuddur və valyutanın sabitliyi hazırkı şəkildə, dövrdə sözsüz ki, iqtisadi siyasətin reallaşdırılması nöqteyi-nəzərdən prioritet təşkil etməlidir”.

*Ayşən Vəli*

# Qarabağ iqtisadi rayonu nə vəd edir?






**Artıq kifayət qədər sübut olunub ki, Azərbaycanın ərazilərində qala-qala Ermənistanın büdcəsi hesabına mövcud olmaq və bunu uzunmüddətli həyata keçirmək heç cür mümkün deyil**

***Azərbaycan Prezidenti İlham Əliyevin Qarabağ iqtisadi rayonunda işğaldan azad olunmuş ərazilər üzrə xüsusi nümayəndəsinin təyin edilməsi haqqında Sərəncam imzalaması, ilk növbədə, Rusiya sülhməramlıları kontingentinin (RSK) müvəqqəti yerləşdirdikləri Azərbaycan ərazilərində yaşayan ermənilərin reinteqrasiyasının formalaşdırılması prosesinin başlanğıcı kimi qiymətləndirilə bilər.***

Beləliklə, buradan həm də belə nəticə hasil etmək olar ki, Azərbaycan rəhbərliyi RSK-nın müvəqqəti yerləşdikləri əraziləri ayırmayıb, əksinə, mövcud əraziləri iqtisadi rayon daxilində təqdim edib, həmçinin, ölkənin inzibati rayonlarını saxlayıb. Daha dəqiq desək, inzibati planda heç nə dəyişmir, yeni müvəqqəti dövlət institutu formaşdırılır ki, həmin institut həm infrastrukturların yaradılması, həm də azərbaycanlıların öz yurdlarına qayıdışı (mövcud halda Ağdama, Füzuliyə, Cəbrayıla, ardınca isə Xankəndiyə, Ağdərəyə, Xocalıya və Əsgərana-R.R.) ilə məşğul olacaq, eyni zamanda, erməni əhalisinin də reinteqrasiyası aparılacaq.

### Ağdam və Şuşa şəhərləri iqtisadi regionun digər şəhərlərindən fərqli olaraq bilavasitə ermənilərin yaşayış məntəqələrinə yaxınlıqda yerləşirlər

Şübhəsiz ki, əsas əlaqələndirmə mərkəzi yüzminlik əhalisi, sənaye potensialı və yüksək ticarət ənənələri olan Ağdam şəhəridir. Həmçinin nəzərə almaq olar ki, Ağdam və Şuşa şəhərləri iqtisadi regionun digər şəhərlərindən fərqli olaraq bilavasitə ermənilərin yaşayış məntəqələrinə yaxınlıqda yerləşirlər. Qarşılıqlı əlaqələr olmadıqda isə Qarabağ regionunun dağlıq hissəsində, hazırda erməni əhalisinin yaşadıqları ərazilərdə nə heyvandarlıq, nə əkin-biçin, nə də torpaq işlərini görmək mümkün olmayacaq. Belə olan halda quldur və separatçı quruluşla sözdə "idarə edilən" və "stepanakert" adlandırılan Xankəndi əlaqələndirmə funksiyasını icra edə bilməz, çünki nə coğrafi, nə də iqtisadi cəhətdən əsaslara, potensiallara malik deyil.

### Qarabağ iqtisadi regionunun erməni əhalisi anlayacaq ki, Ermənistan və erməni diasporları nə təhlükəsizliyin təmin olunmasında, nə də qondarma qurumun tanınmasında heç nə edə bilmədilər

Artıq fakt budur ki, Azərbaycan reinteqrasiya prosesinə məhz bu yolla konstruktiv yanaşma sərgiləyir, iqtisadi mesanizmləri işə salır. Yəni belə bir nəticəyə də gəlmək olar ki, Qarabağ iqtisadi regionunun erməni əhalisi zaman-zaman anlamağa başlayacaq ki, nə Ermənistan, nə də xarici ölkələrə səpələnmiş erməni diasporları istər təhlükəsizliyin təmin olunmasında, istərsə də qondarma qurumun tanınmasında heç nə edə bilmədilər. Müharibədə alınan ağır məğlubiyyət bu sahədə də öz sözünü dedi. Eləcə də, kifayət qədər sübut olunub ki, Azərbaycanın ərazilərində qala-qala Ermənistanın büdcəsi hesabına mövcud olmaq və bunu uzunmüddətli həyata keçirmək heç cür mümkün deyil. Eləcə də, bu gün ağır vəziyyətdən çıxa bilməyən, böhranlı və iqtisadi çöküş bataqlığında çabalayan Ermənistan əhalisinin özü Qarabağ ermənilərinin onlardan asılı olduqlarını görür, bu faktı qəbul etmirlər.



### Qarabağ ermənilərinin yeganə çıxış yolları Azərbaycan vətəndaşlığını qəbul etməkdir

O cümlədən, Ermənistan hökumətini Qarabağa deyil, məhz Ermənistana, erməni vətəndaşlarına xidmət etməsini tələb olaraq irəli sürürlər. Əbəs deyil ki, artıq Ermənistanda "qarabağlı"-"irəvanlı" diskriminasiyaları yaşanır, tərəflər bir-birini həzm etmir, Qarabağ ermənilərinin Ermənistan ermənilərinin boğazlarına yük olduğu açıq şəkildə vurğulanır.

Təbii ki, Ermənistan hökumətində xalqın səsi ilə oturanlar bu reallıqları da yaxşı bilirlər və hakimiyyətlərinin gələcəyini təmin etməkdən ötrü Qarabağdan birdəfəlik əl çəkmələri ətrafında ortaq məxrəcə gəlməkdən başqa çarələri də yoxdur.

Qarabağ iqtisadi rayonu daxilində yaşayan ermənilərin isə yeganə və qaçılmaz çıxış yolları əlbəttə ki, Azərbaycan vətəndaşlığını qəbul etməkdir.

***Rövşən RƏSULOV***






# Hərb tariximizin qəhrəmanları

Bu gün vətənpərvər Azərbaycan gəncliyi ölkənin ictimai-siyasi, sosial-iqtisadi və digər sferalarında aktiv fəaliyyət göstərir, intellektual imkanları və yaradıcılığı ilə dövlətçiliyimizin möhkəmləndirilməsi işinə töhfəsini verir. Gəncliyə göstərilən dövlət qayğısı sabaha və uğurlara hesablanan bir siyasətdir. Ölkəmizdə aparılan gənclər siyasəti hər bir gəncin üzərinə böyük məsuliyyət qoyur. Bu gün Azərbaycan gəncliyi ona göstərilən diqqətin fərqindədir və gənclik ona olan etimadı hər zaman doğrultmaq üçün bütün potensalından maksimum dərəcədə istifadə edir. Millətin mövcudluğunda, dövlətin tərəqqisində, dünyada nüfuz qazanmasında əlbəttə ki, vətəpərvər gəncliyin rolunu xüsusi olaraq qeyd etməliyik. Bu gənclik Silahlı Qüvvələrimizin sıralarında Vətən qarşısındakı müqəddəs borclarını verməklə öz vətəndaşlıq məsuliyyətlərini yerinə yetirmiş olurlar. Ulu Öndər Heydər Əliyevin müdrik kəlamını xatırlatmaq yerinə düşər. Ulu Öndər deyirdi ki, gənclərimizin ən mühüm vəzifələrindən biri də ordu sıralarında xidmət etməkdir. Bəli, vətəni qorumaq, onun müdafiəsində durmaqdan şərəfli bir iş yoxdur. Bizi bir millət olaraq yaşadan Vətənimizdir, Vətən torpağıdır. Onun üzərinə axıdılan igid vətən oğullarının qanıdır. Hər bir vətən oğlunun yolu Azərbaycan Silahlı Qüvvələrindən - vətənə xidmətdən keçir, ərənlik və kişilik məktəbindən. Bu gün Azərbaycan Ordusunun hərbi hissələrində vətənpərvərlik, yüksək ruh hakimdir.



### TALEYİNİ HƏRB SƏNƏTİNƏ HƏSR EDƏN VƏTƏNPƏRVƏR GƏNCLƏR ORDUSU YETİŞDİ

Əlbəttə ki, hər bir ölkə üçün ordu quruculuğu prosesində milli hərbi kadrların hazırlanması mühüm əhəmiyyətə malik sahə kimi daim prioritet təşkil edir. Müstəqil Azərbaycan Respublikasında bu sahəyə xüsusi diqqət yetirilir, Vətənə, dövlətə, dövlətçiliyə sədaqətli, yüksək mənəvi-psixoloji hazırlığa malik peşəkar hərbçi kadrların hazırlanması daim diqqət mərkəzində saxlanılır. Ümummilli Lider Heydər Əliyevin müəllifi olduğu ordu quruculuğu strategiyasında ixtisaslı hərbi kadrların hazırlanması xüsusi yer tutur. Hələ Sovetlər İttifaqı dövründə müstəqil Azərbaycanın milli zabit kadrlarının yetişdirilməsi zərurətini uzaqgörənliklə diqqətə alan Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə 1971-ci ildə Bakıda Cəmşid Naxçıvanski adına Hərbi Lisey yaradıldı. Ulu Öndərin daim qayğı ilə yanaşdığı və xüsusi diqqət yetirdiyi bu tədris ocağı ötən müddət ərzində respublikamızda milli peşəkar hərbçi kadrların hazırlanması sahəsində müstəsna xidmətlər göstərərək, cəmiyyətdə hərbi peşənin nüfuzunun yüksəlməsində və taleyini hərb sənətinə həsr edən gənclərin sayının davamlı artmasında əhəmiyyətli rol oynadı.

Ulu Öndər Heydər Əliyev ikinci dəfə siyasi hakimiyyətə qayıtdıqdan sonra isə milli ordu quruculuğu sahəsində daha geniş tədbirlər görülmüş, Azərbaycan Respublikasının Silahlı Qüvvələri formalaşmışdır. Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra 1993-cü ildən etibarən ölkədəki silahlı qüvvələr dövlətin tam nəzarətinə keçdi. Ulu Öndərin rəhbərliyi ilə dövlətçilik ənənələrimizə söykənərək ölkəmizdə həyata keçirilən dövlət quruculuğunun ən şərəfli və parlaq səhifələrindən biri bu gün artan və qüdrətlənən gücü ilə qürurlandığımız Azərbaycan Ordusudur. Özünümüdafiə dəstələri və könüllü batalyonlar ləğv edildi və beləliklə, Ulu Öndər Heydər Əliyev vahid komandanlığa tabe olan nizami Azərbaycan Ordusunu yaratdı. Ulu Öndər Heydər Əliyev hərbi təhsil sisteminin daha da inkişaf etdirilməsi məqsədi ilə 1999-cu il yanvarın 20-də Hərbi Akademiyanın yaradılması haqqında Fərman imzaladı. Ulu Öndərin 20 avqust 2001-ci il tarixli Fərmanı ilə Silahlı Qüvvələr üçün kadr hazırlığının təkmilləşdirilməsi məqsədilə Müdafiə Nazirliyi sistemində fəaliyyət göstərən məktəblər Azərbaycan Ali Hərbi Məktəbi, Azərbaycan Hərbi Dənizçilik Məktəbi və Azərbaycan Ali Hərbi Təyyarəçilik Məktəbi adlandırılmışdır. Ulu Öndərin 1998-ci il 13 mart tarixli Sərəncamı ilə Cəmşid Naxçıvanski adına hərbi liseyin Naxçıvan filialının yaradılması da bu sahədə görülən işlərin tərkib hissəsidir. Liseyin yetirmələri müstəqil Azərbaycanın Silahlı Qüvvələrinin formalaşdırılması və möhkəmləndirilməsi işinə dəyərli töhfələr vermiş, ölkəmizin ərazi bütövlüyünün bərpası uğrunda aparılan döyüşlərdə həmişə ön cəbhədə olmuşlar.

### "DÜŞMƏNƏ NİFRƏT HİSSİ BİZİ QƏLƏBƏYƏ APARDI VƏ AZƏRBAYCAN TARİXİ ƏDALƏTİ BƏRPA ETDİ"

Ümummilli Lider Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin diqqəti sayəsində son illərdə Azərbaycan Ordusu istər döyüş qabiliyyətinə, istər maddi-texniki bazasına görə dünyada lider yerlərdən birini tutur. Bu gün Qafqazda ən müasir ordu hesab olunan Azərbaycan Milli Ordusu Hərbi Hava və Hava Hücumundan Müdafiə, Hərbi Dəniz və Quru qoşunlarından ibarətdir. Bu qoşun növləri potensial rəqiblə qırıcı və bombardmançı təyyarələrlə effektiv mübarizə aparmaq iqtidarındadır. MDB çərçivəsində Azərbaycan hava hücumundan müdafiə qüvvələrinə malik ən güclü ölkələrdən sayılır. Büdcə vəsaiti ildən-ilə artırılan Azərbaycan Silahlı Qüvvələrinin buna müvafiq olaraq hərbi imkanları da genişlənir. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Silahlı Qüvvələrin modernləşdirilməsi, müasirləşdirilməsi, eləcə də, maddi-texniki bazasının ən müasir standartlar səviyyəsinə çatdırılması sahəsində kifayət qədər əhəmiyyətli işlər reallaşdırılır. Azərbaycan Cənubi Qafqaz regionunda ən güclü orduya malik ölkə statusunu daşıyır.

Təbii ki, ölkənin hərbi qüdrəti və üstünlüyü 2016-cı ilin aprel döyüşlərində nümayiş etdirildi. 2016-cı ilin aprel döyüşləri Azərbaycan Ordusunun qələbəsi ilə nəticələndi. Azərbaycan ordusu öz gücünü erməniyə göstərdi. Qüdrətli Azərbaycan Ordusunun qarşıya qoyulan istənilən vəzifəni - döyüş tapşırığını yerinə yetirməyə qadir olduğunu bütün dünyaya görmüş oldu. Azərbaycan Ordusu dörd günlük Aprel döyüşləri ilə xalqımıza qələbə sevincini yaşatdı. Eyni zamanda, Naxçıvan əməliyyatı Azərbaycan Ordusunun gücünü, hərbçilərimizin rəşadət və cəsarətini düşmənə əyani surətdə nümayiş etdirdi. Vətənə, dövlətə bağlı olan Azərbaycan Ordusunun Lələtəpədə, Naxçıvanın Günnüt, Qızılqaya yüksəkliklərinə sancdığı Azərbaycan bayrağını tezliklə erməni işğalında olan torpaqlarımızda da dalğalandıracağına inam sonsuz idi. Çünki Azərbaycanın belə şanlı və güclü ordusu, vətənpərvər gəncliyi vardı. Sabaha inam güclü idi. Qələbə inamı. Belə də oldu. Prezident İlham Əliyevin həyata keçirdiyi güclü dövlət, güclü ordu strategiyası torpaqlarımızın işğaldan azad olunmasında həlledici rol oynadı. Ali Baş Komandanın rəhbərliyi altında Azərbaycan Ordusunun işğal altında olan torpaqlarımızı azad etmək məqsədilə zəfər yürüşünə başlaması və qırx dörd gün davam edən hərbi əməliyyatlar nəticəsində Ermənistanın 30 il ərzində qurduğu silahlı qüvvələrini darmadağı edərək qələbə qazanması tariximizə yeni bir səhifəni həkk etdi. Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən təsdiqlənən mükəmməl hərbi strategiya və taktika döyüş meydanında Azərbaycan Ordusunun "Dəmir yumruq" əməliyyatını sürətlə və az itki ilə həyata keçirməyə imkan verdi. Vətən müharibəsində qazanılan zəfər bütün türk dünyasının qələbəsi olaraq dünyaya mesaj oldu. Bu müharibədə vətənpərvər gənclərimiz böyük şücaət göstərdilər. Azərbaycanın işıqlı gələcəyi, istiqlalı, azadlıq günəşinin doğması üçün qanlar axıdıldı. Canından, qanından neçə-neçə igid oğullar keçdi. O oğullar ki, Vətən torpağından, onun şirəsindən, qanla yoğrulmuş hər qarışından güc almışdı. Od püskürən oğullar Azərbaycan torpağında milli qəhrəman oldu, qanı ilə torpağı suvararaq Şəhid oldu. Onlar haqqın səsinə can fəda etdilər. Azərbaycan torpağında üç rəngli bayrağımız dalğalansın deyə. Vətən daşı onların isti yuvasına çevrildi. Azərbaycanın qəhrəman, igid övladlarının keçdiyi şərəfli ömür yolu, döyüş yolu bizlərə əsl örnəkdir. Bəli, Vətən sevgisi, vətənpərvərlik Qələbəmizin əsas amilinə çevrildi. Bu haqq savaşımız bir daha sübut etdi ki, Azərbaycanda vətənpərvər, güclü, milli ruhda tərbiyə almış, öz torpağı, vətəni uğrunda qanından keçməyə belə hazır olan gənclər var. Bu gənclik Azərbaycan Prezidentinin rəhbərliyi dövründə vətənpərvərlik ruhunda tərbiyə almış gənclikdir. Cənab Prezidentin çıxışlarının birində bildirdiyi kimi, "2003-cü ildə 10 yaşı, 15 yaşı olanların bu gün 27-32 yaşı var. Onların məhz vətənpərvərlik ruhunda tərbiyə alması, düşmənə nifrət hissi bizi Qələbəyə apardı və Azərbaycan tarixi ədaləti bərpa etdi".



### Mİ-17 HƏRBİ HELİKOPTERİNİN TƏLİM UÇUŞLARI YERİNƏ YETİRƏRKƏN QƏZAYA UĞRAMASI TARİXİMİZƏ DAHA AĞRILI BİR GÜN KİMİ YAZILDI

Mübariz, mərd vətən oğulları bu torpaqda Şəhidlik zirvəsinə yüksəldilər. Şərəfli yol keçdilər. Hər an vətən yolunda hazır, müsəlləh əsgər olduqlarını əməlləri ilə göstərdilər. Vətənə sədaqət andı onları tərk etmədi. Noyabrın 30-da Xızı rayonu ərazisindəki "Qaraheybət" aviasiya poliqonunda Dövlət Sərhəd Xidmətinin hərbi helikopterinin qəzaya uğraması nəticəsində heyət üzvlərinin həlak olması hər bir azərbaycanlının kədərinə səbəb oldu. Helikopterin qəzaya uğraması nəticəsində 14 nəfər həlak olmuş, 2 nəfər isə yaralanmışdır.

Məlumdur ki, Azərbaycan xalqı heç də uzaq olmayan tarixi keçmişində ən dəhşətli helikopter qəzalarından olan 20 noyabr 1991-ci il tarixində Xocavənd rayonunun Qarakənd kəndində yaxınlıqlarında baş vermiş qəzanın acılarını yaşamışdır. Qarakənd faciəsi kimi tariximizdə yer alan hadisə nəticəsində ümumilikdə 22 nəfər həlak olmuşdur. Bundan əlavə, 24 iyul 2019-cu il tarixində Azərbaycan Hərbi Hava Qüvvələrinə məxsus təlim uçuşları həyata keçirən MİQ-29 təyyarəsi qəfil radarlardan itmişdir. Təyyarə Xəzər dənizinə düşəndən sonra pilot polkovnik-leytenant Rəşad Atakişiyev itkin düşmüş, uzun axtarışlardan sonra pilotun nəşi tapılmışdır.

Qeyd edək ki, Dövlət Sərhəd Xidmətinin Səngəçal aerodromundan qalxan Mi-17 hərbi helikopteri paytaxt Bakı şəhərindən 70 kilometr (43 mil) uzaqlıqda - Xızı rayonu ərazisində yerləşən "Qaraheybət" aviasiya poliqonunda təlim uçuşları yerinə yetirərkən qəzaya uğramışdır. Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidmətinin rəisi, general-polkovnik Elçin Quliyev pilotun təcrübəli olduğunu vurğulamış və onun Birinci Qarabağ müharibəsinin iştirakçısı olduğunu, helikopterin demək olar yeni olduğunu və qısa müddət əvvəl onda təmir işləri aparıldığını bildirmişdir. Helikopterin qara qutusunun tapıldığını deyən E.Quliyev hadisədə heç bir kənar qüvvənin iştirakı olmadığını əlavə etmişdir.

Məlumatlara görə, helikopterin qəzaya uğraması nəticəsində iki polkovnik, beş mayor, dörd kapitan, iki leytenant və bir podratçı həlak olmuş, bir polkovnik və kapitan isə yaralanmışdır. Hadisə nəticəsində həlak olanların hər biri xalqımızın mərd, vətənpərvər oğullarıdır. Azərbaycan Prezidenti İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva həlak olanların ailələrinə və yaxınlarına başsağlığı veriblər.

Öz borclarını yerinə yetirərkən həlak olan Vətən oğullarının xatirəsi hər zaman qəlblərdə yaşayacaq.

***Nəzakət ƏLƏDDİNQIZI***

# "İndiki gəlinlər müasir dövrdür deyib, iş görmürlər"

**Müasir dövrdə demək olar ki, hər kəs işləyir. Evdar xanımlar isə ev işləri ilə məşğul olurlar. Onların işləri də evləridir. Lakin indiki dövr texnologiya dövrü olduğu üçün texnoloji ev alətləri xanımlara olduqca köməklik göstərir. Buna baxmayaraq, texnologiyanın digər məhsulu olan smartfonlar bəzən insanın bütün vaxtını aparır. Bəzən telefonu əlimizə aldığımızda bütün işlərimizi kənara qoyub telefona fokuslanırıq. Evdar xanımlarda da bu belədir. Son dövrlərdə evdar xanımların tənbəllik etməsi məsələsi gündəmdədir. SİA olaraq şəhər sakinlərinin fikrini öyrənməyə çalışdıq:**



## SORĞU

**Paytaxt sakini Zərəngiz Qüdrətova:** "Fikrimcə, indiki gəlinlər iş görə bilmirlər yox, daha doğrusu, iş görmək istəmirlər. Başa düşürəm müasir dövrdür. Bu gün hər şey texnika ilə həll olunur. Amma indiki dövrün gəlinləri bir az tənbəldir. Heç bir iş görmürlər. Söz də deyəndə, adamın üzünə qayıdırlar. Amma keçmişdə belə deyildi. Telefon, internet yox idi. Ona görə də, indiki ailələrdə olan bu cür problemlər bizim dövrümüzdəki ailələrdə yox idi".



**Paytaxt sakini Nərmin Pərvinzadə:** "Məncə, xanımlarımız işgüzardır. Hətta eləleri var ki, həm işə gedir, həm uşağa baxır, həm də ev ilə məşğul olur. Deməzdim ki, indiki gəlinlər iş görmür. Mən özüm də həm işləyirəm, həm də ev ilə məşğul oluram. Evə yetəri qədər vaxtımı ayırıram və bu, mənim üçün heç vaxt problem olmayıb".



**Paytaxt sakini Könül Əliyeva:** "Artıq müasir dövrdür. Hər kəs işini texnika ilə həll edir. Amma bu, gəlinlərin ev işini görmədiyi, ümumiyyətlə, heç bir iş görmədiyi demək deyil. Düşünürəm ki, bəzi xanımlarımız telefona, sosial şəbəkələrə, ev işlərinə, uşağına yetəri qədər vaxt ayırmalıdır. Mənə elə gəlir ki, belə olduqda ailədaxili problemlər də yaranmaz".



**Paytaxt sakini Nərmin Əliyeva:** "Gəlinlərin iş görmədiyini, sadəcə, qayınanaları deyir. Məncə, gəlinlər ev işlərini görür, yetəri qədər ev ilə, uşaq ilə maraqlanırlar. Sadəcə, 5 dəqiqə vaxt tapıb oturanda, əlinə telefonu alanda deyirlər ki, iş görmürsən, tənbəlsən. Mənim ailəmdə bu günə qədər bu cür problem olmayıb. Amma başqalarında eşitmişəm. Hətta əlinə 5 dəqiqəlik telefon aldığına görə boşananlar da var".



**Paytaxt sakini Zenfira Quliyeva:** "Mənim iki oğlum var. İkisi də ailəlidir. İki gəlinimdən də razıyam. Çünki ikisi də işgüzardır. Evə, uşağa, ümumiyyətlə, ailəyə yetəri qədər diqqət və qayğı göstərirlər. Onlar telefonla da məşğul olurlar. Amma bu, heç vaxt bizim ailəmizdə problem olmayıb".



**Paytaxt sakini Aidə Qarayeva:** "İndiki gəlinlər başlarını telefondan qaldırsalar, daha yaxşı olar. Çünki telefona baxmaqdan ev işi görmürlər, uşaq ilə maraqlanmırlar. Hətta eləleri var ki, heç evdə yemək bişirmir. Müasir dövrdür deyib, iş görmürlər. Ümumiyyətlə, indiki gəlinlərimizin iş görməklə arası yoxdur. Uşağa belə baxmırlar, dayənin öhdəliyinə buraxırlar. Amma bu, düzgün deyil. Belə olmamalıdır".



**Paytaxt sakini Şəlalə Hüseynova:** "Başqalarını deyə bilmərəm, amma mən öz gəlinimdən çox razıyam. O, çox işgüzardır. Həm işləyir, həm ev, həm də uşaq ilə məşğul olur. Bəziləri telefonu, "Tik-Toku" bəhanə edir ki, guya heç bir gəlin iş görmür. Amma fikrimcə, elə deyil".



**Paytaxt sakini Minarə Mehdiyeva:** "İndiki gəlinlər iş görməməklə yanaşı, həm də adamla dilləşir. Etdiyi səhvini başa düşüb üzr istəməkdənsə, özündən böyüyə cavab qaytarır. Həqiqətən də, bizim dövrümüzdə belə deyildi. Abır-həya var idi. Bizdən böyük olanlardan çəkinirdik. Onlara hörmət edirdik. Çox heyif ki, indiki dövrün gəlinləri belə deyil".



***Arzu Qurbanzadə***

# Magistratura imtahanında yeni qaydalar NƏ OLACAQ?

*TƏHSİL EKSPERTİ AÇIQLADI*



"2022-ci ildə ali təhsil müəssisələrinin magistratura pilləsinə qəbul imtahanları keçiriləcək və təbii ki, əvvəlki illərdə olduğu kimi bu il də imtahan bir mərhələdən ibarət olacaq. Yəni, imtahan iştirakçıları bir mərhələdə məntiqi düşünmə, eyni zamanda informatika bilikləri və xarici dil biliklərini əks etdirən suallara cavab verəcəklər". Bu sözləri SİA-ya açıqlamasında təhsil eksperti Kamran Əsədov deyib.

Onun sözlərinə görə, müvafiq olaraq burada proqramlar üzrə keçid balları var və təbii ki, keçid balının bu müsabiqə şərtini ödəyən bakalavrlar magistratura pilləsi üzrə ixtisas seçiminə buraxılacaqlar: "Qeyd edim ki, Azərbaycan təhsil sistemi iki ilə yaxındır ki, artıq pandemiya dövründədir və bu birmənalı şəkildə tədrisin keyfiyyətli təşkilinə öz təsirini göstərir. Dövlət İmtahan Mərkəzi də bundan əvvəlki imtahanlarda yəni, 2020-ci ildə keçirilən, eyni zamanda 2021-ci ilin müvafiq dövründə keçirilən imtahanlarda təqdim edilən test tapşırıqları zamanı pandemiya dövrünü müəyyən qədər nəzərə alıb. Təbii ki, burada nəzərə alıb dedikdə test tapşırıqları arasında çətin, orta və asan tipli test tapşırıqlarının sayının bərabər paylanması əsas tutulur".

Ekspert sözlərinə belə davam edib: "Təbii ki, biz birmənalı şəkildə deyə bilmərik ki, burada bütün suallar asan olmalıdır. Bu belə deyil. Təqdim edilən test tapşırıqları öz ağırlıq səviyyəsinə görə təbii ki, pandemiya dövrünün çətinlikləri nəzərə alınmaqla həyata keçirilməlidir. Hesab edirəm ki, burada heç də bütün suallar ona görə asan olmamalıdır ki, bu süni şəkildə keçid ballarının qalxmasına gətirib çıxara bilər və yüksək ballı bizim bakalavrlarımız kənarda qala bilərlər. Ona görə də təbii ki, burada ən vacib diqqətə alınmalı məsələ test tapşırıqları arasında ağırlıq səviyyəsinin paylanmasını daha da genişləndirmək lazımdır".

"Birmənalı şəkildə keçirilən imtahanlarda tam olaraq sualların təbii ki, ağırlıq səviyyəsi dəyişməməlidir. Amma pandemiya dövrünün çətinlikləri, şagirdlərin hazırlıq kursuna gedə bilməməsi, öyrənməklə bağlı ortaya çıxan problemlər, hətta biz bilirik ki, bakalavrlar arasında yoluxma halları olanlar da olub. Yəni, bu amillər mütləq olaraq nəzərə alınmalıdır".

***Ayşən Vəli***

# Belarus politoloqu:

## KTMT Ermənistan və Azərbaycan arasında potensial münaqişələrə qarışmayacaq



ŞƏRH

**Aİ-yə inteqrasiya perspektivlərinin öyrənilməsi mərkəzinin direktoru, belaruslu politoloq Dmitri Belyakov "Caliber" analitik mərkəzinə regionda yaranmış vəziyyətlə ağlı fikirlərini bildirib. Politoloqun şərhini oxucularımızın diqqətinə çatdırırıq.**

-KTMT-yə üzv ölkələr Ermənistan və Azərbaycan arasında potensial münaqişələrə qarışmayacaq. Bundan əlavə, Belarus tərəfi Azərbaycanla münasibətlərin qurulmasının tərəfdarıdır. Belarus qoşunlarının hətta hipotetik olaraq Ermənistan-Azərbaycan münaqişəsində iştirak edə biləcəyi vəziyyət, məncə, real deyil.

Tərəflər hazırda mövcud olanlarla öz xalqlarının maraqlarına uyğun işləməlidirlər. Bu günə olan məlumata görə, Azərbaycan cəmi 1 ildə Qarabağın inkişafına bütün əvvəlki 30 ildə Ermənistandan daha çox sərmayə qoyub. Bu isə vəziyyətin digər ölkələr tərəfindən başa düşülməsində mühüm rol oynayır. Təbii ki, daha çox Qərb müttəfiqlərinin rəhbərlik etdiyi Ermənistan hazırkı vəziyyəti tanımadan Qarabağ məsələsi ətrafında vəziyyəti gərginləşdirməkdə davam edir. Bu, onu deməyə əsas verir ki, Ermənistanın hazırkı rəhbərliyi bu məsələnin sülh yolu ilə həllində maraqlı deyil.

***Tərcümə - Elçin Bayramlı***

# Heydər Əliyev işığının nurlandırdığı yol!

**Hər bir millət, hər bir dövlət yaşam tarixində torpağını, xalqını sevən, onu mübarizə meydanında qələbəyə, çətin anlarda işığa doğru aparan rəhbərə, şəxsiyyətə ehtiyac duyur. Sözün əsl mənasında hər bir dövlətin bir dövlət olaraq formalaşmasında, millətin millətlər sırasında mətin dayanmasında böyük şəxsiyyətlərə daim ehtiyac var. Azərbaycanın adı bu gün dünya müstəvisində öndə gedən dövlətlər sırasında məğrur durur. Daim bu torpaq, bu millət dahilər, onun adını zirvələrə ucaldan şəxsiyyətlər yetirib.**

"Heç bir millət şəxsiyyətsiz yaşaya bilməz". Bu fikir Azərbaycan adını öndə gedən dünya ölkələri sırasına yazan, öz uzaqgörənliyi ilə dünya siyasətçilərini daim heyrətə gətirməyi bacaran, millətin hər bir nümayəndəsini ürəkdən sevən dahi şəxsiyyət, Ulu Öndər Heydər Əliyevə məxsusdur! Əslində doğru deyiblər ki, zaman hər şeyi yerbəyer edir, hər şeyin, hər kəsin doğru qiymətini verir. İllər keçdikcə, Ümummilli Liderimiz Heydər Əliyevin böyüklüyünü, müdrikliyini, xalqını, vətənini necə bir məhəbbətlə sevdiyini daha çox anlayırıq. Bu siyasət nəhənginin fəaliyyəti bütün bəşəriyyətin xoşbəxt gələcəyi uğrunda mübarizəyə həsr olunmuşdur. Belə ki, tarixin xalqımıza bəxş etdiyi dahi şəxsiyyətin, müasir Azərbaycanın xilaskarı və memarı, Ulu Öndəri Heydər Əliyevin bütün fəaliyyətinin məqsədi Azərbaycanı güclü, demokratik dövlətə çevirmək və xalqına firavan həyat bəxş etmək idi.

Azərbaycanın ən yeni tarixinin bütöv bir dövrü onun şərəfli adı və möhtəşəm fəaliyyəti ilə bağlıdır. Onun Azərbaycana otuz ildən çox rəhbərliyi dövründə ölkəmiz bütün sahələrdə böyük inkişaf yolu keçib. O, bütün həyatını ölkəmizin yüksəlişinə və insanların xoşbəxtliyinə həsr etmişdir.

Artıq kimsəyə sirr deyil Heydər Əliyev 1987-ci ilin oktyabrında Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun və şəxsən Baş katib Mixail Qorbaçovun yürütdüyü imperializm siyasi xəttinə etiraz əlaməti olaraq, tutduğu vəzifələrdən istefa vermişdir. Heydər Əliyev 1990-cı ilin 20 yanvarında sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciə ilə əlaqədar ertəsi gün Azərbaycanın Moskvadakı nümayəndəliyində bəyanatla çıxış edərək, Azərbaycan xalqına qarşı törədilmiş cinayətin təşkilatçıları və icraçılarının cəzalandırılmasını tələb etmişdir. O, Dağlıq Qarabağda yaranmış kəskin münaqişəli vəziyyətlə bağlı SSRİ rəhbərliyinin ikiüzlü siyasətinə etiraz əlaməti olaraq, 1991-ci ilin iyulunda Sovet İttifaqı Kommunist Partiyasının sıralarını tərk etmişdir.



**Bu yol - Prezident,** Ali Baş Komandanımız Qalib Lider İlham Əliyev yolunun dönməz və sarsılmaz yoludur







**Ulu Öndərin səsi Kremlin ölkəmizin ətrafında yaratdığı informasiya blokadasını yardı**

1990-cı ilin 20 yanvarında isə xalqımıza qarşı əsrin ən böyük cinayətlərindən biri törədildi. Dağlıq Qarabağa qarşı təcavüz nəticəsində torpaqlarımızın 20 faizi işğal edildi, 20 mindən çox insan şəhid, 30 mindən artıq adam isə əlil, şikəst oldu. Belə ağır bir zamanda Heydər Əliyev öz həyatını təhlükə altına alaraq xalqı ilə birgə olduğunu bəyan etdi. Məhz Ulu Öndərin səsi Kremlin ölkəmizin ətrafında yaratdığı informasiya blokadasını yardı.

Öncə Naxçıvanı çətin durumdan xilas edən Ulu Öndər, 1993-cü ildə xalqın təkidi və tələbi ilə Bakıya qayıtdı. Beləliklə, Azərbaycanın dövlətçiliyi, millətimiz və vətənimiz xilas oldu. Azərbaycan yenidən dinamik inkişaf tempi əldə etdi. Ən əsası isə SSRİ dövründə başlanan və məhz müstəqilliyimizə hesablanmış layihələr davam etdirildi, müstəqil dövlətimiz yaşadı. Artıq qarşıdakı məqsəd dövlətin qurulması, dövlətçilik ənənəsinin yaradılması, dövlət idarəçiliyi institutlarının formalaşdırılması və müstəqil ölkəmizin qanunvericilik bazasının təşkili idi. Bütün bunlarla yanaşı, müstəqil Azərbaycan dövlətinin xarici siyasət kursu formalaşdırıldı. Ulu Öndər bu vəzifələrin öhdəsindən ləyaqətlə gəldi. Azərbaycanda müstəqilliyin əbədiliyini, dönməzliyini təmin edən dövlət quruluşu yaratdı.

Bəli, həmin dövrlərdə ölkədə böyük bir qarşıdurma yaranmışdı. Heydər Əliyev zəkası ölkəmizi bu problemdən də xilas etdi. Məhz Ulu Öndərin səyi nəticəsində Azərbaycanda hüquqi dövlət quruldu. Bu günkü demokratik prinsiplərə sadiq, vətəndaş cəmiyyəti, inkişaf etmiş və sabit Azərbaycanın təməli məhz 1993-cü ilin yayında atıldı.

O, 1991-1993-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri, Azərbaycan Respublikası Ali Soveti sədrinin müavini olmuşdur. Heydər Əliyev 1992-ci ildə Yeni Azərbaycan Partiyasının Naxçıvan şəhərində keçirilmiş təsis qurultayında partiyanın sədri seçilmişdir. 1993-cü ilin may-iyununda hökumət böhranının son dərəcə kəskinləşməsi ilə ölkədə vətəndaş müharibəsinin baş verməsi və müstəqilliyin itirilməsi təhlükəsi yarandıqda Azərbaycan xalqı Heydər Əliyevin hakimiyyətə gətirilməsi tələbi ilə ayağa qalxdı. Heydər Əliyev 1993-cü il iyunun 15-də Azərbaycan Ali Sovetinin Sədri seçildi, iyulun 24-də isə Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı. 1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. O, 1998-ci il oktyabrın 11-də xalqın yüksək fəallığı şəraitində keçirilən seçkilərdə səslərin 76,1 faizini toplayaraq, yenidən Azərbaycan Respublikasının Prezidenti seçildi.

## Dahi Lider Heydər Əliyev müstəqil dövlətimizin ilk Konstitusiyasının yaradıcısı

Ulu Öndər Heydər Əliyev ictimai-siyasi sabitliyi qorumaq üçün qanunçuluğun yüksək səviyyədə təsbit olunması istiqamətində mühüm addımlar atdı. Ölkədə xaos və özbaşınalığın qarşısı alındı. Xalqın Heydər Əliyevə inamı, etimadı o dərəcədə yüksək idi ki, onun hər bir çağırışı Azərbaycan xalqının bütün təbəqələrində böyük əks-səda doğururdu. 1994-95-ci illərdə xarici qüvvələrin köməyi ilə bəzi dairələr Azərbaycanda dövlət çevrilişinə cəhd göstərdilər. Məqsəd ölkəmizin həyata keçirdiyi müstəqil siyasəti əngəlləmək, Azərbaycanı yenidən xarici qüvvələrin, imperiya dairələrinin təsiri altına keçirmək idi. Azərbaycan xalqının Heydər Əliyevə olan inamı hesabına dövlət çevrilişinə cəhdin qarşısı qətiyyətlə alındı. İctimai-siyasi sabitliyin təmin edilməsi iqtisadi islahatların həyata keçirilməsinə yol açdı. Dövlət idarəçiliyi ilə bağlı qanunlar hazırlanaraq təsdiq olundu. Ən başlıcası isə müstəqil dövlətimizin ilk Konstitusiyası qəbul edildi. Müstəqil Azərbaycan Respublikasının

Konstitusiyası 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi ilə qəbul edildi. Bu Konstitusiyanın müəllifi Ulu Öndər Heydər Əliyevdir. Azərbaycan xalqının siyasi taleyini, siyasi fəaliyyətini, məqsəd və məramını, iqtisadi və dövlət idarə üsulunu müəyyən edən Konstitusiyanın qəbul edilməsi olduqca əhəmiyyətli hadisədir. Bu Konstitusiya ilə Azərbaycanda hakimiyyət bölgüsü - qanunverici, icra və məhkəmə hakimiyyəti arasında bölgü müəyyənləşdirildi. Konstitusiya ilə təsbit edildi ki, Azərbaycan demokratik, hüquqi və unitar dövlətdir. Konstitusiyada insan hüquq və azadlıqlarına geniş yer verilməsi göstərdi ki, Azərbaycanın yolu demokratiyadır. Bütün bunlar Ulu Öndərin dövlət quruculuğu sahəsində gördüyü böyük işlərin əsas istiqamətlərindən biridir.

## "Əsrin müqaviləsi" - Heydər Əliyevin tarixi sərvətlərinə sahib çıxmasının təsdiqi

Ulu Öndər Heydər Əliyevin ən böyük xidmətlərindən biri də Azərbaycanın öz təbii sərvətlərinə sahib çıxması, dünyanın əsas neft-qaz ixracatçısına çevrilməsidir. Heydər Əliyevin bu istiqamətdə həyata keçirdiyi nəhəng siyasi layihələrdən biri neft strategiyasıdır. Neft strategiyası bu gün də Azərbaycan üçün həm siyasi, həm də iqtisadi dividendlər gətirməkdədir. Ulu Öndərin uzaqgörənliyi və qətiyyəti sayəsində 1994-cü il sentyabrın 20-də Bakıda müxtəlif ölkələrin neft şirkətləri ilə imzalanan "Əsrin müqaviləsi" Azərbaycanın yeni neft strategiyasının əsasını qoydu. Bu neft strategiyası dünyanın ən qabaqcıl neft şirkətlərini Azərbaycana investisiya yatırmağa cəlb etdi. Bu investisiyalar iqtisadi sabitliyin bərqərar olması üçün böyük rol oynadı. Azərbaycanın beynəlxalq nüfuzu artdı, bölgədə rolu genişləndi. O cümlədən iqtisadi islahatlar aparılması üçün böyük baza yaradıldı, sosial islahatlar üçün iqtisadi potensial əldə edildi.

Heydər Əliyevin həyata keçirdiyi nəhəng geopolitik layihələr sırasında Bakı-Tbilisi-Ceyhan neft kəməri layihəsi bu gün həm Azərbaycan, həm də region üçün böyük rol oynayır. Bütün iqtisadi təhlilçilərin və tədqiqatçıların fikri ondan ibarətdir ki, belə nəhəng layihənin həssas bir bölgədə, geopolitik baxımdan dartışmalar mərkəzi olan Cənubi Qafqazda həyata keçirilməsi yalnız böyük şəxsiyyətin - Heydər Əliyevin uzaqgörənliyi ilə reallaşa bilərdi.

Enerji təhlükəsizliyi bütün dünya dövlətlərini düşündürən ən vacib məsələlərdən biridir. Ona görə də Azərbaycanın, o cümlədən Xəzərin karbohidrogen ehtiyatlarının dünya bazarlarına çıxarılmasına əngəl olmaq istəyən qüvvələr var idi. Onların manеələrinə baxmayaraq Heydər Əliyev BTC neft kəmərinin, sonra isə Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin reallaşması üçün böyük siyasət həyata keçirdi. Bu layihələrin reallaşması Heydər Əliyevin uğuru, onun böyük şəxsiyyət olaraq tarixi prosesə göstərdiyi təsirlərin nəticəsi idi. Azərbaycan Respublikası Konstitusiyasının 11-ci maddəsinin I hissəsində göstərilir ki, Azərbaycan Respublikasının ərazisi vahiddir, toxunulmazdır və bölünməzdir. Həmin maddənin II hissəsində isə göstərilir ki, Azərbaycan Respublikasının daxili suları, Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan sektoru, Azərbaycan Respublikasının üzərindəki hava məkanı Azərbaycan Respublikası ərazisinin tərkib hissəsidir. Qeyd edilən maddənin III hissəsinə əsasən Azərbaycan Respublikasının ərazisi özgəninkiləşdirilə bilməz.

Azərbaycan Respublikası öz ərazisinin heç bir hissəsini heç bir şəkildə kimsəyə vermir; yalnız Azərbaycan Respublikası Milli Məclisinin qərarı ilə Azərbaycanın bütün əhalisi arasında referendum keçirmək yolu ilə Azərbaycan xalqının iradəsi əsasında dövlət sərhədləri dəyişdirilə bilər.

Həmçinin, Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinin 2-ci maddəsinin 4-cü hissəsinə əsasən, bütün üzv dövlətlər öz beynəlxalq münasibətlərində, hər hansı bir dövlətin ərazi bütövlüyünə və siyasi müstəqilliyinə qarşı və yaxud Birləşmiş Millətlər Təşkilatının məqsədləri ilə bir araya sığmayan hər hansı bir şəkildə güclə hədələməkdən və gücün tətbiqindən çəkinirlər. Beləliklə, dövlətlərin ərazi bütövlüyünün toxunulmazlığı prinsipi beynəlxalq hüququn bir prinsipi kimi qəbul edilmişdir. Ümummilli Lider Heydər Əliyev bununla bağlı demişdir: " Hər bir ölkənin ərazi bütövlüyü, sərhədlərinin pozulmazlığı Birləşmiş Millətlər Təşkilatının sənədlərində təsbit edilmiş beynəlxalq hüququn sarsılmaz prinsipidir".

Ulu Öndər Heydər Əliyev istər istər dövlət başçıları, istərsə də xarici ölkələrdə olan Azərbaycan diasporunun nümayəndələri, iş adamları, qeyri-hökumət təşkilatlarının nümayəndələri ilə görüşlərində Dağlıq Qarabağın Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi olması fikrini əsaslandırmış və buna da nail olmuşdur.

Prezident İlham Əliyevin bu siyasəti uğurla davam etdirməsi nəticəsində BMT Baş Məclisinin 6 sentyabr 2006-cı il tarixli "Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyət" adlı qətnaməsində Azərbaycanın işğal edilmiş ərazilərində baş verən yanğınlardan və onun vurduğu böyük ekoloji ziyandan ciddi narhatlığı vurğulanmışdır. Ölkə başçısı İlham Əliyev çıxışlarında dəfələrlə bəyan etmişdir ki, Dağlıq Qarabağ münaqişəsi yalnız Azərbaycan ərazilərinin bütövlüyü çərçivəsində həll edilə bilər. Prezident Milli Məclisin 2006-cı il payız sessiyasının açılışındakı çıxışında demişdir: "Azərbaycanın hərbi büdcəsi Ermənistanın bütün büdcəsinə bərabər olmalıdır və yəqin ki, gələn il biz buna nail olacağıq. Bütün beynəlxalq normalara məhəl qoymayan Ermənistan, əfsuslar olsun ki, beynəlxalq təşkilatlar tərəfindən qınaq obyektinə çevrilmir. Azərbaycan artıq o ölkədir ki, öz torpağının işğalına dözməyəcəkdir. Azərbaycan artıq o ölkədir ki, öz iqtisadi, siyasi, hərbi potensialından istifadə edib, istədiyinə nail olcaqdır Dağlıq Qarabağ tarixi Azərbaycan torpağıdır. Azərbaycan torpaqlarında ikinci erməni dövlətinin yaranmasına biz heç vaxt icazə verməyəcəyik".

Bəli, bu gün Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin Azərbaycan Respublikasının suverenliyi, ərazi bütövlüyünün bərpasına nail oldu. Böyük Öndər Heydər Əliyev demişdir: "İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə ümidlər bəsləyirəm".

Ümummilli lider Heydər Əliyevin müdrik, uzaqgörən və çevik daxili və xarici siyasətini özünün siyasi kursu elan etmiş, Heydər Əliyev idarəçilik məktəbinin layiqli davamçısı hesab edilən İlham Əliyevin məqsədyönlü fəaliyyəti nəticəsində Ali Baş Komandanımız, Prezident İlham Əliyev cənablarının dediyi kimi: "Dərsini verdik. Öz bayrağımızı ucaltdıq Şuşada və bütün başqa şəhər və rayonlarımızda. Hər kəs gücümüzü gördü. Hər kəs qüdrətimizi gördü, iradəmizi gördü. Bu dəmir yumruq onların belini qırdı, onların başını əzdi. Bu, birlik yumruğudur, bu, güc yumruğudur.

Bundan sonra Azərbaycan yalnız inkişaf, tərəqqi yolu ilə gedəcək. Bundan sonra da biz ordu quruculuğu işində əməli addımlar atacağıq, ordumuzu daha da gücləndirəcəyik. Bütün göstərişlər verildi. İradəmiz də var, təcrübəmiz də var - əvəzolunmaz təcrübə. İndi bütün ölkələr bu Vətən müharibəsinin təcrübəsini öyrənirlər. Vəsaitimiz də var. Xalq-iqtidar birliyimiz də var. Biz göstərmişik ki, böyük xalqıq, qürurlu xalqıq. Düşməni yerə vurduq. Düşmənin belini qırdıq, məhv etdik. Bu, tarixi Qələbədir. Bu Qələbə Azərbaycan tarixində əbədi qalacaq, şanlı Qələbə kimi!".

Bəli, Ruhun şad olsun Ulu Öndər, Qarabağ Azərbayücandır! Azərbaycan xalqının Qalib Lideri, Azərbaycan xalqının Prezidenti İlham Əliyev dəmir siyasətinin nəticəstndə "Dağlıq Qarabağ" problemi yoxdur!. Prezident İlham Əliyev bildirib ki, biz döyüş meydanında, siyasi müstəvidə Qələbə qazanmışıq və bu Qələbə ölkəmiz üçün yeni dövr açır. Bu dövr inkişaf, təhlükəsizlik, tərəqqi dövrü olacaqdır: "Bu dövrlə bağlı müraciətlərimi yenə də hər bir Azərbaycan vətəndaşının arzuladığı sözlərlə yekunlaşdırmaq istəyirəm: Cəbrayıl bizimdir, Füzuli bizimdir, Zəngilan bizimdir, Qubadlı bizimdir, Ağdam bizimdir, Kəlbəcər bizimdir, Laçın bizimdir, Şuşa bizimdir, Qarabağ bizimdir! Qarabağ Azərbaycandır! Eşq olsun Azərbaycan xalqına! Yaşasın Azərbaycan!".

Ona görə də Ulu Öndərin fiziki yoxluğu dövründə ölkəsini, millətini düşünüb, müstəqilliyimizin əbədi olması uğrunda qətiyyətlə mübarizə apara biləcək yeganə Lider Prezident İlham Əliyev cənablarıdır. Bütün bunlar isə Heydər Əliyev uzaqgörənliyinin, Heydər Əliyev zəkasının və Heydər Əliyev nurunun bizə tərəf saçılan əbədi şöləleridir!







**RƏFİQƏ HÜSEYNOVA**

# Qarabağ və Şərqi Zəngəzur investorlar üçün cəlbedici məkana çevriləcək



## İqtisadi Əməkdaşlıq Təşkilatının XV Zirvə Toplantısı Azərbaycanın işğaldan azad edilmiş ərazilərində gördüyü bərpa və quruculuq işlərinin təqdimatı oldu

İqtisadi Əməkdaşlıq Təşkilatı "Birlikdə gələcəyə" deyib, XV Zirvə Toplantısını keçirdi. Toplantıdakı çıxışlara, eyni zamanda, tədbir çərçivəsində Azərbaycan Prezidentinin keçirdiyi ikitərəfli görüşlərə və imzalanan sənədlərə nəzər saldıqda görürük ki, əsas diqqət Azərbaycanda olub. Bu da səbəbsiz deyil. Artıq dövlət başçısı İlham Əliyev tədbirlərə qalib ölkənin qalib Prezidenti, eyni zamanda, Zəfərimizin yaratdığı reallıqlar fonunda diktə edən tərəf kimi qatıldı. Digər tərəfdən isə Vətən müharibəsini yaşayan və tarixi Zəfərindən dərhal sonra bərpa və quruculuq işlərinə start verən, həmçinin koronavirus infeksiyasına qarşı mübarizə tədbirlərini gücləndirməklə yanaşı, koronavirusla mübarizəni dəstəkləmək məqsədilə 80-ə yaxın ölkəyə birbaşa və Ümumdünya Səhiyyə Təşkilatının xətti ilə maliyyə və humanitar yardım göstərən ölkə dayanıqlı inkişafı ilə diqqətdədir. Cənab İlham Əliyevin topantıda açıqladığı rəqəmlərə diqqət yetirmək kifayətdir. Dünyanı heyrətləndirən, Azərbaycanın dayanıqlı inkişafına gətirib çıxaran addımlara diqqət yetirək.

Dövlət başçısı İlham Əliyev tarixi Zəfərimizdən sonra yaranan yeni reallıqlar fonunda sülhün, təhlükəsizliyin təmin edilməsinin investorlar üçün də mühüm amil olacağını önə çəkərək bu əminliyi ifadə edir ki, yaşadığımız quruculuq, işğaldan azad edilmiş ərazilərimizin bərpası dövründə müəyyənləşdirilən Milli Prioritetlərin uğurlu icrası nəticəsində dayanıqlı inkişafa töhfələr veriləcək. 2003-cü ildən bu günə ölkəmizdə enerji sektorundan asılılığın minimuma endirilməsi istiqamətində atılan addımlar, iqtisadiyyatın şaxələndirilməsi siyasəti beynəlxalq aləmdə də təqdir olunur, qeyri-neft sektoruna investisiya axını sürətlənir. Son 18 ildə ölkə iqtisadiyyatına 280 milyard dollara yaxın investisiya qoyulub ki, bunun böyük hecmini xarici investisiyalar təşkil edir. Bu mühüm məqam Azərbaycanın bu gününə və gələcəyinə inamı nümayiş etdirir. Azərbaycanın iştirakçısı və təşəbbüsçüsü olduğu layihələrin uğurlu icrasının nəticəsi olaraq dövlət büdcəsinə milyardlarla dollar vəsait daxil olur ki, bu da sosialyönümlü layihələrin icrasını sürətləndirir. Qarşıya qoyulan məqsədlərə nail olmaq üçün regionların malik olduğu potensialdan səmərəli istifadə əsas prioritet kimi öndədir. Təhlillər əsasında bu reallıq öz təsdiqini tapır ki, ölkənin davamlı inkişafında iqtisadiyyatın düzgün əsaslar üzərində qurulması əhəmiyyətli rol oynayır. Bölgələrin inkişafını qeyri-neft sektorunun inkişafı, yeni iş yerlərinin yaradılması kimi dəyərləndirən dövlət başçısı İlham Əliyev qarşıya qoyulan məqsədlərə yüksək səviyyədə nail olmaq üçün infrastrukturun yenilənməsini, beynəlxalq standartlara uyğunlaşdırılmasını vacib amil kimi diqqətə çatdırır. Atılan addımlarda əsas məqsəd bölgələrin inkişafına nail olmaqla yanaşı, sahibkarlara dəstək göstərməkdir. İnfrastrukturun yenilənməsi öz növbəsində iş adamlarının fəaliyyətlərini daha yüksək səviyyədə qurmalarını şərtləndirir. Azərbaycanın nailiyyətləri beynəlxalq qurumlar tərəfindən yüksək qiymətləndirilir. Davos Dünya İqtisadi Forumunun hesabatına əsasən, Azərbaycan hökumətin uzunmüddətli strategiyası üzrə dünyada 10-cu yerdə, ölkə rəhbərliyinin islahatlara sadiqliyi sahəsində isə 5-ci yerdə qərarlaşıb. Davos hesabatına əsasən, Azərbaycan əhalinin elektrik enerjisinə əlçatanlıq əmsalına görə dünyada 2-ci, dəmir yolu xidmətlərinin səmərəliliyinə görə 11-ci, hava nəqliyyatı xidmətlərinin səmərəliliyinə görə 12-ci, dəniz limanları xidmətlərinin səmərəliliyinə görə 25-ci və yol infrastrukturunun keyfiyyəti baxımından 27-ci yerdədir.

Bu gün ailə təsərrüfatlarının inkişafından bəhs edirik. Asan dəstək funksiyasını yerinə yetirən ABAD mərkəzlərinin normal fəaliyyətində də əsas amillərdən biri infrastrukturun beynəlxalq standartlara uyğun yenilənməsidir. Həmçinin son illərdə dövlət başçısı İlham Əliyev ənənəvi kənd təsərrüfatı sahələrinin inkişafını qarşıya prioritet məsələ kimi qoyub. Bütün bu hədəflər özlüyündə kompleks tədbirlərin həyata keçirilməsini bir zərurət kimi ortaya qoyur. "Kənd təsərrüfatı qarşısında duran əsas vəzifə bu sahəni yüksək texnoloji sahəyə çevirməkdir" söyləyən ölkə Prezidenti bildirir ki, ən müasir texnologiyalar tətbiq edilməlidir. Xarici mütəxəssislər cəlb edilməlidir. Ölkə iqtisadiyyatına yatırılan investisiyaların həcminin ildən-ilə daha da artırılması, daxili investisiyaların xarici investisiyaları üstələməsi ölkəmizdə sahibkarlığın inkişafına dəstəyin bariz nümunəsidir. Cənab İlham Əliyev bildirir : "Əlbəttə, bütün bu işləri görərkən, bir daha qeyd etmək istəyirəm ki, biz bir neçə məqsədi güdürük. Ölkə iqtisadiyyatını şaxələndirmək, idxaldan asılılığı azaltmaq, ixrac potensialını və kənd təsərrüfatı məhsullarının ixracını artırmaq. Hesab edirəm ki, biz kənd təsərrüfatı məhsullarının ixracını iki dəfə artıra bilərik. Bu, real hədəfdir, biz buna nail olmağa çalışmalıyıq." Qeyd etdiyimiz kimi, beynəlxalq maliyyə qurumlarının hesabatlarında Azərbaycan öz mövqeyini uğurlu islahatları ilə möhkəmləndirir, hər bir hesabat əvvəlki ilin hesabatından yeniliyi ilə seçilir. "Biz, əlbəttə ki, öz işimizi reytinq almaq üçün qurumuruq" söyləyən ölkə Prezidenti İlham Əliyev, eyni zamanda, bildirir ki, əlbəttə, belə fikirlər ortaya qoyulanda həm bizi daha da sevindirir, həm də dünyanın bütün maliyyə qurumlarına bir siqnaldır.

Ölkə Prezidenti uğurlarımızda bir məqamı xüsusi qeyd edir ki, 1990-cı illərin sonlarında, 2000-ci illərin əvvəllərində bəzi təhlilçilər deyirdilər ki, neft Azərbaycana xoşbəxtlik gətirməyəcək, problem gətirəcək. Ancaq biz bu təbii sərvətimizdən maksimum dərəcədə səmərəli istifadə edə bilmişik, ölkəmizi möhkəmləndirmişik, möhkəm dövlət qurmuşuq və müstəqil ölkə kimi yaşayırıq. Gələcəkdə daha da böyük işlər görüləcək. Artıq müstəqilliyinin yenidən bərpasının 30 ilini arxada qoyan Azərbaycan neft amilinin ölkə iqtisadiyyatının inkişafında önəmini bildirərək gerçəkləşdirdiyi enerji layihələri ilə regionda inkişafın aparıcı qüvvəsinə, dünyanın enerji təhlükəsizliyinin təminatçısına çevrilib. Artıq son 18 il neft siyasətinin məntiqi davamı olaraq qeyri-neft sektorunun inkişafı kimi xarakterizə olunur. Davamlı inkişafın əsası olan Strateji yol xəritələri 2016-2020-ci illər üçün iqtisadi inkişaf strategiyasını və tədbirlər planını, 2025-ci ilədək olan dövr üçün uzunmüddətli baxışı və 2025-ci ildən sonrakı dövrə hədəf baxışı özündə ehtiva edir.

Uğurlarımız qarşıya qoyulan hədəflər və onların icrası üçün düzgün mexanizmin müəyyənləşdirilməsi ilə mümkün olmuşdur. "Əgər biz oturub gözləsəydik ki, kimsə gəlib bunu bizim əvəzimizə edəcək, hansısa investor gəlib pul qoyacaq, bunların heç biri mümkün olmazdı" söyləyən dövlət başçısı bazar iqtisadiyyatının əsas aparıcı qüvvəsi kimi sahibkarlığın inkişafının bütün dövrlər üçün aktual olduğunu bildirir. Ölkəmizdə keçirilən biznes forumlar, həmçinin ölkə Prezidentinin bu və ya digər xarici ölkəyə səfəri zamanı iş adamları ilə görüşləri iqtisadi imkanlarımızın təqdimatında əhəmiyyətli rol oynayır.

Özünüməşğulluğun təminatı, ən əsası sosial müdafiənin gücləndirilməsi əsasdır. Ailə təsərrüfatlarının inkişafına dəstəyin daha da gücləndirilməsi, hər bir ailənin öz məhsulu ilə tanınması üçün şəraitin yaradılması sağlam rəqabətə yol açır.

Artıq Azərbaycan həyatının yeni mərhələsini yaşayır. İşğaldan azad edilmiş torpaqlarımızda bərpa və quruculuq işləri həyata keçirilir. Dövlət başçısı İlham Əliyevin Sərəncamı əsasında iqtisadi rayonların yeni bölgüsü aparıldı. Həmin bölgüyə əsasən 14 iqtisadi rayon yaradılıb. İşğaldan azad edilmiş ərazilərimizin malik olduğu resurslar məlumdur. Həm ənənəvi kənd təsərrüfatı sahələrinin, həm də ümumilikdə qeyri-neft sektorunun inkişafı üçün bütün imkanlar mövcuddur. İşğaldan azad olunan ərazilərimizin mövcud potensialı, xammal və təbii ehtiyatlar, məhsuldar torpaq sahələrinin həcmini nəzərə alsaq, bərpa mərhələsindən sonra qısa zamanda həmin rayonlarımızda məhsul istehsalının dəfələrlə artacağı proqnozlaşdırılır. Burada məqsəd aqrar sektorun inkişafına nail olmaqdır. Füzuli, Cəbrayıl və Zəngilan rayonları işğaldan əvvəl kifayət qədər böyük aqrar və sənaye potensialına malik rayonlar idi. Eyni zamanda, Qubadlı, Ağdam, Kəlbəcər, Laçın rayonları da məhsuldar torpaqlara malikdir. Bu torpaqların məhsuldarlığının bərpa edilməsi əsasında ölkəmizin ərzaq təhlükəsizliyinin təminatına böyük töhfə verəcək. Onu da qeyd edək ki, Azərbaycanda meşə zolağının 25 faizi işğal altında olmuş torpaqların payına düşür. Su ehtiyatlarımızın təxminən yarıya qədəri həmin ərazidədir. İşğaldan azad edilmiş ərazilərimizdə infrastrukturun yenilənməsi, kənd təsərrüfatı və sənaye müəssisələrinin bərpası yeni iş yerlərinin yaradılmasına gətirib çıxaracaq. Bir sözlə, tarixi sahiblərinə qayıdan torpaqlarımızda canlanma yaşanır. Zəfərimizdən sonra həmin torpaqlarda ilk olaraq infrastrukturun bərpasına xüsusi diqqət göstərilməsi də səbəbsiz deyil. Yol-nəqliyyat infrastrukturunun yenilənməsi, enerji, qaz xətlərinin çəkilişi, bu ərazilərin "yaşıl enerji" zonasına çevrilməsi üçün tapşırıqların verilməsi və sair kimi biri-birindən mühüm addımlar qarşıya qoyulan hədəflərə qısa zamanda nail olmaqla Qarabağın yaxın zamanlarda cənnət məkana çevrilməsinə, xarici investorlar üçün cəlbediciliyinin artmasına geniş imkanlar açacaq. Dövlət başçısı İlham Əliyev Zirvə Toplantısındakı nitqində də qeyd etmişdir ki, azad olunmuş Qarabağı və Şərqi Zəngəzuru yaşıl enerji zonası elan etmişəm. Azad olunmuş ərazilərin təsdiqlənmiş potensialı 7200 meqavat günəş və 2000 meqavat külək enerjisi təşkil edir. Həmin toplantıda bu rəqəm də açıqlanmışdır ki, görülmüş bərpa və quruculuq işlərinin artıq ilkin nəticələri var. Azərbaycan yalnız özünün maliyyə resurslarına arxalanaraq, sıfırdan yeni şəhər və kəndlər salır. Bu il bu məqsədlərə dövlət büdcəsindən 1,3 milyard ABŞ dolları ayrılmışdır. 2022-ci ildə də bu işlərə ən azı eyni həcmdə vəsait ayrılacaq.

Son bir ildə müzakirə olunan məsələlər sırasında zəngin iqtisadi potensiala malik olan işğaldan azad edilmiş torpaqlarımızın Azərbaycanın dayanıqlı inkişafına hansı töhfələri verəcəyidir. "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər", həmçinin iqtisadi rayonların bölgüsünün yenidən həyata keçirilməsi həmin bölgələrin malik olduğu iqtisadi imkanlardan səmərəli istifadəyə geniş imkanlar açır. Milli Prioritetlərdə hədəflər və icra mexanizmləri öz əksini tapıb. Əsas hədəflərdən biri bərpa və quruculuq işlərinin müasir tələblərə cavab verməsi və Böyük Qayıdışın sürətləndirilməsidir.

Əvvəldə də qeyd etdiyimiz kimi, son 18 il ərzində Azərbaycan iqtisadiyyatı sürətlə inkişaf etmiş, ümumi daxili məhsul üç dəfədən çox artmışdır. Genişmiqyaslı islahatlar nəticəsində Azərbaycanda münbit sərmayə iqlimi yaradılmışdır. Dünya Bankının "Doing Business" hesabatında Azərbaycan 190 ölkə arasında 28-ci yerdə qərarlaşıb. Azərbaycanın strateji valyuta ehtiyatları xarici dövlət borclarından 6 dəfə çoxdur. Azərbaycanın xarici borcu ölkənin ümumi daxili məhsulunun 17,3 faizini təşkil edir. 2030-cu ilin sonuna qədər bu rəqəmin 10 faizə enməsi planlaşdırılır.

Hədəflərimiz iqtisadi rayonların yeni bölgüsü əsasında onların malik olduğu potensialdan səmərəli istifadəyə əsaslanır. 2030-cu ilə qədərki dövrü əhatə edən Milli Prioritetlərdən öncə "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası icra edilir. Bu konsepsiyanın hədəfləri isə Azərbaycanı inkişaf etmiş ölkələr sırasında görmək, yüksək gəlirli dövlətə çevirmək, 3 dəfə artan ümumi daxili məhsulun daha iki dəfə artırılmasına nail olmaqdır. Hər bir sahədə təkmil təcrübəsi ilə nümunə olan ölkəmizin inkişaf etmiş ölkələr sırasında addımlaması reallıqdır. Artıq ölkəmiz daha yeni hədəflərə yeni iqtisadi və sosial inkişaf modeli ilə qədəm qoyub. Noyabrın 30-da Prezident Administrasiyasının rəhbəri, Azərbaycan Respublikasının İşğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahının rəhbəri Samir Nuriyevin sədrliyi ilə Qərargahın ötən birillik fəaliyyətinin yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş növbəti iclası son bir ildə işğaldan azad edilmiş ərazilərimizdə görülən bərpa və quruculuq işlərinin yekunu olmaqla yanaşı, perspektivlərin təqdimatı oldu.

***Yeganə Əliyeva***

# BİRLİYİMİZ

## hər bir hədəfə yüksək səviyyədə çatmağımızı təmin edir

### Yeni Azərbaycan Partiyası Xətai rayon təşkilatının ərazi partiya təşkilatında hesabat-seçki yığıncağı keçirilib

Dekabrın 2-də YAP Xətai rayon təşkilatı 8 noyabr küçəsi 84 A ünvanında yerləşən ərazi partiya təşkilatında hesabat-seçki yığıncağını keçirib. Hesabat məruzəsi dinlənilib, çıxışlar əsasında ərazi partiya təşkilatının hesabat dövründəki fəaliyyəti qiymətləndirilib. Yığıncaqda çıxış edən YAP Xətai rayon təşkilatının sədri Vüqar Rəhimzadə müstəqilliyinin yenidən bərpasının 30 ilini arxada qoyan Azərbaycanın dünənini bu günü ilə müqayisə edərək bu fikri xüsusi qeyd edib ki, artıq ərazi bütövlüyünü təmin edən qalib ölkənin vətəndaşlarıyıq: "Bu qalibiyyət harada yaşamasından asılı olmayaraq hər bir azərbaycanlıda qürur hissi yaradır. 2021-ci il tariximizə quruculuq ili kimi yazılacaq. İşğaldan azad edilmiş ərazilərimizdə aparılan bərpa və quruculuq işlərinin miqyası ölçüyəgəlməzdir. Məqsəd 30 il torpaq həsrəti ilə yaşayan və bu günü səbirsizliklə gözləyən soydaşlarımızın Böyük Qayıdışını təmin etməkdir. Ondan sonra həmin ərazilərdə yeni həyat başlayacaq. Digər regionlarımız kimi, işğaldan azad edilmiş ərazilərimizin də malik olduğu iqtisadi imkanlardan səmərəli istifadə etməklə ölkə iqtisadiyyatının dayanıqlığı təmin olunacaq."



Vüqar Rəhimzadə qeyd edib ki, qələbələr, zəfərlər partiyası kimi nüfuz qazanan Yeni Azərbaycan Partiyası bu gün bütün səylərini yeni reallıqların diktə etdiyi vəzifələrin icrasına istiqamətləndirib: "Daim Azərbaycanı ən yüksək zirvələrdə görmək istəyən ulu öndər Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən Prezident İlham Əliyev zamanın tələblərinə uyğun kompleks islahatlar həyata keçirərək ölkəmizi Ümummilli Liderin görmək istədiyi Azərbaycan səviyyəsinə yüksəldir. Görülən işlərə, nəzərdə tutulan layihələrin icrasına öz töhfələrini verən Yeni Azərbaycan Partiyasının 29 ildə keçdiyi yola nəzər saldıqda da hədəflərini zamanın tələblərinə uyğun müəyyənləşdirdiyini və zamanında tam reallaşdırdığını görərik. Vaxtilə "Yeni Azərbaycan uğrunda" devizi ilə seçkilərə qatılan Yeni Azərbaycan Partiyası artıq bu gün yeni hədəflərə doğru inamla irəliləyir".

Son prezident seçkilərindən bu günədək ölkəmizin həyatında baş verən yeniliklərə, Yeni Azərbaycan Partiyasının qəbul etdiyi qərarlara, irəli sürdüyü təşəbbüslərə, reallaşdırdığı layihələrə bir daha diqqət yönəldən YAP Xətai rayon təşkilatının sədri vurğulayıb ki, ölkə Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin ətrafında sıx birləşərək qarşıya qoyulan hər bir hədəfə yüksək səviyyədə nail olacağıq. 44 günlük İkinci Qarabağ müharibəsində dəmir yumruq kimi birliyimiz sayəsində 30 ilin işğalına son qoyub ərazi bütövlüyümüzü təmin etməyimiz bunun təsdiqidir. Sonra hesabat seçki-yığıncağında təşkilati məsələyə baxılıb. Bəylər Bəylərov 8 noyabr küçəsi 84 A ünvanında yerləşən ərazi partiya təşkilatının sədri, Babək Zəfərov isə sədr müavini seçiliblər. YAP Xətai rayon təşkilatının sədri Vüqar Rəhimzadə yeni tərkibə fəaliyyətlərində uğurlar arzulayıb.





## "Nar" Qaxda yenilənmiş mağazasını təqdim etdi

**"Nar" paytaxtla yanaşı regionlarda da mərkəzlərini yeniləməklə müştərilərinə tam yeni satış və xidmət təcrübəsi təqdim etməyə davam edir. Mobil operator Qax şəhəri H. Əliyev prospekti 346 ünvanında yerləşən mağazasını yeni konseptə uyğunlaşdıraraq, müştərilərin ixtiyarına verib.**

Qeyd edək ki, "Nar" mağazasında ziyarətçilərə nömrələrin satışı, bərpası, eyni zamanda dublikatının çıxarılması da daxil olmaqla, müxtəlif növ xidmətlər təqdim edilir. Yenilənmiş "Nar" mağazasında, həmçinin mobil telefonların, müxtəlif cihazların və aksesuarların satışı da həyata keçirilir. Bir sözlə, yenilənmiş "Nar" mağazasında müştərilərin müasir üslubda məlumat və xidmət alması təmin edilib.

Qeyd edək ki, "Nar" abunəçilərinə üstün və fərqli müştəri xidməti təcrübəsi təqdim etmək məqsədilə, mağazalarında yeni konseptin tətbiqini bütün ölkə boyu davam etdirməkdədir. Mobil operatorun paytaxt və regionlar üzrə yeni konsepsiyada təqdim etdiyi mağazaların sayı 24 olub. Sizə yaxın olan satış və xidmət mərkəzlərinin ünvanları haqqında ətraflı məlumatı nar.az/map internet səhifəsindən öyrənə bilərsiniz.





## "Ermənilər elə düşünürdülər ki, onlar daimi olaraq Laçında qalacaqlar"

"Dekabrın 1-də Laçın rayonu işğaldan azad olundu. Bu, cənab Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuzun 44 günlük Vətən müharibəsi zamanı döyüş meydanında qazandığı qələbinin davamı idi". Bu sözləri SİA-ya açıqlamasında deputat Sevil Mikayılova deyib. Onun sözlərinə görə, 10 noyabrda Azərbaycan və Rusiya Prezidentləri və Ermənistan baş naziri tərəfindən imzalanan bəyanata əsasən ötən ilin bu günü ölkəmizin mühüm strateji əhəmiyyətə malik rayonlarından biri olan Laçın Azərbaycana qaytarılıb: "Heç bir güllə atmadan və itki vermədən Laçının geri qaytarılması Azərbaycanın növbəti möhtəşəm qələbəsi idi. 1992-ci ildə işğaldan sonra ermənilər Laçında qeyri-qanuni məskunlaşma aparmışdı. Ermənilər qanunsuz olaraq Laçında məskunlaşmaqla rayonun sərvətlərini mənimsəyirdilər. Ermənilər tərəfindən Laçında 217 mədəniyyət, 101 təhsil, 142 səhiyyə müəssisəsi, 462 ticarət, 30 rabitə, 133 idarə və müəssisə, 5 musiqi məktəbi, 1 internat məktəbi, 1 orta texniki peşə məktəbi, 2 avtonəqliyyat və müxtəlif təyinatlı istehsal müəssisələri talan və məhv edilib. 54 dünya, 200-dən çox yerli əhəmiyyətli tarixi abidə vandalizmə məruz qalıb. VI-cı əsrə aid Alban Ağoğlan məbədi, 14-cü əsrə aid Məlik Əjdər türbəsi, Qaraqışlaq kəndində məscid, Zabux kəndində qədim qəbiristanlıq bunların sırasındadır. Laçın Tarix Muzeyi və onun qızıl, gümüş və tunc sikkələrdən ibarət qədim kolleksiyası talan edilib".

Deputat fikirlərinə davam edərək həmçinin qeyd edib ki, ermənilər elə düşünürdülər ki, daimi olaraq orada qalacaqlar: "Lakin cənab Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə müzəffər Azərbaycan Ordusunun döyüş meydanında əldə etdiyi mütləq qələbələr düşməni 10 noyabr kapitulyasiya bəyanatına əsasən Laçından çıxmağa vadar etdi və ordumuzun döyüş meydanında başlatdığı qələbələr siyasi müstəvidə də zəfər əldə etməyə imkan verdi. Laçın strateji ərazi olmaqla bərabər iqtisadi və regional inkişaf baxımından da mühüm əhəmiyyətə malikdir. Laçın rayonu zəngin faydalı qazıntılarla, o cümlədən 3 filiz, 37 qeyri-filiz və inşaat materialları yataqları, civə, vermikulit, əlvan və üzlük daşları, sement xammalı və tikinti daşı yataqları ilə zəngindir. Bu gün Laçında və bütün azad olunmuş ərazilərdə sürətli quruculuq-bərpa işləri aparılır. Cənab Prezident İlham Əliyev tərəfindən artıq Laçında beynəlxalq hava limanının tikintisinə start verilib. Bu hava limanının inşası bölgənin beynəlxalq statusunu artıracaq. Çox gözəl xəbərdir ki, bugündən Laçın rayonunun su təchizatı təmin edilib, Laçın rayonu öz doğma sahiblərinə qayıdıb, öz doğma sahibləri də Laçına həyatı qaytarırlar. Bu gün Laçında üçrəngli bayrağımız dalğalanır".

***Arzu Qurbanzadə***

## YAP Masallı rayon təşkilatının fəalları şəhid Cavad İbadovun məzarını ziyarət ediblər





Yeni Azərbaycan Partiyası Masallı rayon təşkilatının fəalları Masallı rayonundan olan şəhid Baş Çavuş Xüsusi Təyinatlı İbadov Cavad Cabir oğlunun anım günündə məzarını ziyarət ediblər. Ziyarətçilər şəhidin məzarı önünə gül dəstələri düzüb, ruhuna dualar oxumuşlar. Daha sonra Yeni Azərbaycan Partiyası Masallı rayon təşkilatının fəalları şəhidin ailə üzvüləri ilə görüşmüşlər. Allah bütün şəhidlərimizə rəhmət eləsin.

***Rəfiqə***

# "Artıq bütün dünya Azərbaycan reallıqlarını qəbul edir"

"Artıq bütün dünya Azərbaycan reallıqlarını qəbul edir. Burada ikitərəfli və çoxtərəfli münasibətlər ən vacib şərtlərdəndir. Azərbaycanın xarici siyasətində prioritet istiqamətlərini düzgün müəyyənləşdirməsi, dünyanın ayrı-ayrı dövlətləri ilə yaratdığı əlaqələrin, beynəlxalq təşkilatlarla, bu qurumlara üzv olan dövlətlərlə əməkdaşlığın uğurlu nəticələri ölkəmizi dünya birliyi müstəvisində söz və nüfuz sahibi edib". Bu sözləri SİA-ya açıqlamasında deputat Aydın Hüseynov deyib.

Onun sözlərinə görə, Aşqabadda Azərbaycan və İran prezidentlərinin görüşü də 44 günlük müharibədən sonra müəyyən səbəblərdən iki ölkə arasında yaranmış soyuq münasibətlərə aydınlıq gətirdi: "Tərəflər bu məsələdən kənar qüvvələrin yararlanmaq istədiyini inkar etmədi. Məğlub Ermənistanın və onun havadarlarının Azərbaycan üçün ikinci cəbhəni açmaq iddialarının fiaskoya uğradığı, iki xalq arasında nifaq toxumu səpmənin səmərəsiz olduğu üzə çıxdı.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev və İran Respublikasının Prezidenti cənab Seyid İbrahim Rəisi ölkələrimiz arasında münasibətlərdə qarşıya çıxan məsələlərin belə təmaslar və səfərlər çərçivəsində öz həllini tapa biləcəyini vurğulamaları Azərbaycan-İran münasibətlərinin bundan sonra daha yüksək səviyyədə və milli maraqlarımıza uyğun şəkildə qurulacağına ümidləri artırır. Görüşdə həmçinin ölkələrimiz arasında münasibətlərin yüksək səviyyədə olduğu, mehriban qonşuluq və dostluq əlaqələrinin mövcudluğu qeyd edildi. Görüş zamanı Azərbaycan ilə İran arasında Şimal-Cənub nəqliyyat dəhlizi, həmçinin Zəngəzur nəqliyyat dəhlizi çərçivəsində əməkdaşlıq məsələləri müzakirə olundu və İranın da bu dəhlizdən faydalanacağı vurğulandı".

Deputat sözlərinə davam edərək həmçinin qeyd edib ki, tarixi Qələbəmizdən sonra regionda yaranmış yeni geosiyasi vəziyyət, Azərbaycana qonşu olan ölkələrin birgə layihələrdə iştirakının vacibliyi diqqətə çatdırıldı: "Azərbaycan, Rusiya və İran arasında enerji qovşağının yaradılması məsələləri müzakirə edildi. Beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq, iqtisadi-ticari əlaqələr ətrafında geniş fikir mübadiləsi aparıldı. İran-Azərbaycan əlaqələrinin tarixi xarakter daşıdığı və xalqlarımız arasında dostluq münasibətlərinin mövcud olduğu bir daha vurğulandı və prezidentlərin iştirakı ilə "İran İslam Respublikasının ərazisindən təbii qazın tranzit şərtlərini müəyyənləşdirən Saziş" imzalandı. Bütün məsələlərin dialoq yolu ilə səmimi atmosferdə həllinin vacibliyini prioritet hesab edən Azərbaycan cənub qonşumuzla da daim sülh, dostluq, qardaşlıq şəraitində yaşamaq istəyini ortaya qoydu: "Prezident İlham Əliyev görüşdən sonra verdiyi açıqlamasında da bildirdi ki, bundan sonra İran-Azərbaycan əlaqələri bütün sahələrdə yüksələn xətlə inkişaf edəcək. Xalqlarımız qardaş xalqlardır, ölkələrimiz qardaş ölkələrdir və bu gün müzakirə olunan məsələlər bir daha onu göstərir ki, İran-Azərbaycan əlaqələri çox yüksək səviyyədədir. İran prezidenti Rəisi də Azərbaycan Prezidenti ilə həmfikir olduğunu qeyd etdi və bildirdi ki, bu əlaqələrdə heç bir anlaşılmazlığın olması gərək deyil. Azərbaycan, İran və Türkmənistan arasında imzalanan qaz sazişi ölkələrimizin əlaqələrinin, iki və üç ölkə arasındakı münasibətlərin inkişafına xidmət edəcək. Bu sahədə ciddi və çoxsaylı addımların atılması zəruridir. İnanırıq ki, bundan sonra da iki ölkə arasında dost münasibətlər yalnız inkişaf edəcək, bölgədə daim barış, sülh olacaq, iqtisadi münasibətlərimizin sferası genişlənəcək".



***Arzu Qurbanzadə***

# Bizim doğma torpağımız Zəngəzurdur, Göyçə mahalıdır, İrəvandır...



## Azərbaycan Prezidenti Aşqabadda bəyan etdi: "Zəngəzur dəhlizi reallığa çevrilir"

Noyabrın 28-də Türkmənistanın paytaxtı Aşqabad şəhərində İqtisadi Əməkdaşlıq Təşkilatının (İƏT) XV Zirvə Toplantısında çıxış edən Azərbaycan Prezidenti İlham Əliyev bildirib: "Yenidənqurma işlərinə başlamışıq ki, artıq onların ilkin nəticələri var. Azərbaycan yalnız özünün maliyyə resurslarına arxalanaraq, sıfırdan yeni şəhər və kəndlər salır. Bu il bu məqsədlərə dövlət büdcəsindən 1,3 milyard ABŞ dolları ayrılmışdır. 2022-ci ildə də bu işlərə ən azı eyni həcmdə vəsait ayrılacaqdır. Mən azad olunmuş Qarabağı və Şərqi Zəngəzuru yaşıl enerji zonası elan etmişəm. Azad olunmuş ərazilərin təsdiqlənmiş potensialı 7200 meqavat günəş və 2000 meqavat külək enerjisi təşkil edir. İqtisadi Əməkdaşlıq Təşkilatının sonuncu Zirvə Toplantısında mən həmkarlarıma Zəngəzur dəhlizi haqqında məlumat vermişdim. Bu gün deyə bilərəm ki, Zəngəzur dəhlizi reallığa çevrilir. Bu yeni nəqliyyat infrastrukturu Şərq-Qərb və Şimal-Cənub dəhlizlərinin önəmli hissəsinə çevriləcək. Əminəm ki, İƏT-ə üzv ölkələr bu dəhlizdən istifadə edəcəklər".

Bəli, Prezident İlham Əliyev çıxışlarında, müsahibələrində, görüşlərində dəfələrlə bəyan edir ki, biz istər danışıqlarla, istərsə güc yolu ilə Zəngəzur dəhlizini açacağıq. Soçidə Azərbaycanın əldə etdiyi diplomatik nailiyyətlər göstərir ki, Zəngəzur dəhlizinin açılmasına doğru gedirik. Birmənalı olaraq demək lazımdır ki, Soçi görüşü Azərbaycanın növbəti diplomatik qələbəsidir və bu qələbənin müəllifi ölkə Prezidenti, qalib lider cənab İlham Əliyevdir. Çünki bütün şərtləri qaliblər diktə edir. Və Azərbaycan Prezidenti İlham Əliyev də bütün şərtləri diktə edən tərəfdir. Çünki Azərbaycan Vətən müharibəsində qalib gəlib və hazırda şərtləri diktə edən tərəfdir.

**"Bizim doğma torpağımız Zəngəzurdur, bizim doğma torpağımız Göyçə mahalıdır, İrəvandır. Biz qayıdacağıq, əlbəttə"**

Prezident İlham Əliyev Xocasən qəsəbəsində şəhid ailələri və müharibə əlillərinə mənzillərin və avtomobillərin təqdim edilməsi mərasimindəki çıxışı zamanı bildirib ki, Şərqi Zəngəzur bizim tarixi torpağımızdır: "Qərbi Zəngəzur bizim tarixi torpağımızdır. Biz tarixi unuda bilmərik, kiminsə siyasi maraqlarının girovuna çevirə bilmərik. Gəlsinlər, açsınlar tarixi sənədləri, xəritələri, baxsınlar, sovet hökuməti Zəngəzuru nə vaxt Azərbaycandan qoparıb Ermənistana verib. Bu, yaxın tarixdir - 101 il bundan əvvəl. Yəni, biz deyək ki, bu, olmayıb? Nəyə görə? Biz həqiqəti deyirik. Bizim dədə-baba torpağımızdır: bütün Zəngəzur - Şərqi və Qərbi Zəngəzur. İndi Ermənistanda deyirlər ki, İlham Əliyev ərazi iddiası ilə çıxış edir. Əgər Şərqi Zəngəzur varsa, deməli Qərbi Zəngəzur da var. Bəli, Qərbi Zəngəzur bizim dədə-baba torpağımızdır".

Azərbaycan Prezidenti onu da bildirib ki, biz Zəngəzura qayıtmalıyıq: "Bunu hələ on il bundan əvvəl demişəm. Mənim çıxışlarım hamısı mətbuatda var. Demişəm ki, bizim dədə-baba torpağımızdır, biz oraya qayıtmalıyıq və qayıdacağıq və qayıdırıq. Heç kim bizi dayandıra bilməz. Mütləq qayıdacağıq, çünki bunun başqa yolu yoxdur".

Bəli, Zəngəzur bizim dədə-baba torpağımızdır və biz öz ərazimizdəyik. Bir sözlə, bu dəhliz Vətən müharibəsində qazandığımız tarixi uğurlarımızdan biridir. Prezident İlham Əliyev də Zəngəzur dəhlizinin tarixi nailiyyət olduğunu vurğulayıb: "Üçtərəfli Bəyanatda xüsusilə bu məsələnin əks olunması bizim, eyni zamanda, böyük siyasi qələbəmizdir. Hazırda Zəngəzur dəhlizinin fəaliyyəti istiqamətində fəal işlər aparılır, bir çox təkliflər var, artıq bir çox nəqliyyat-kommunikasiya layihələri masa üzərindədir, müzakirə edilir və bu, bizim növbəti tarixi uğurumuz olacaqdır".

***RƏFİQƏ KAMALQIZI***

# "Əsgərə xatirə" layihəsi: daim şəhid ailələri və qazilərin yanında!

Yeni Azərbaycan Partiyası Nizami rayon təşkilatında "Əsgərə xatirə" layihəsinin təşkilatçılığı ilə 44 günlük Vətən müharibəsinə həsr edilmiş tədbir keçirilib. SİA xəbər verir ki, tədbir iştirakçıları öncə torpaqlarımızın azadlığı uğrunda canlarını qurban vermiş qəhrəman Vətən övladlarının - şəhidlərimizin əziz xatirəsini bir dəqiqəlik sükutla yad ediblər.

Çıxış edən "Əsgərə xatirə" layihəsinin rəhbəri Nuranə Şıxəliyeva, Milli Məclisin deputatları Vüqar İsgəndərov, Arzu Nağıyev, YAP Nizami rayon təşkilatının sədri Ramil Vəlibəyov, İçərişəhər "Cümə" məscidinin axundu, ilahiyyat elmləri doktoru Hacı Surxay Məmmədli, şəhid Sübhan Əbdürrəhmanovun anası Mehriban Abdurahmanlı, şəhid Cavid Manafovun anası Natəvan İbrahimova, Qəbələ Dövlət Peşə Təhsil Mərkəzinin direktoru Qalib Nəbiyev, "Əsgərə xatirə" layihəsinin icraçı direktoru Məltəm Şıxəliyeva, "Bakı" Klinikasının fizioterapiya şöbəsinin meneceri Mahirə Əhmədova, Elmi-Tədqiqat Mama Ginekologiya İnstitutunun böyük elmi işçisi Afət Həsənova, qazi Orxan Qurbanov, Müdafiə Nazirliyi İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsinin məsul əməkdaşı polkovnik-leytenant Kamran Nəsibov deyiblər ki, Azərbaycan 44 günlük Vətən müharibəsində bir yumruq kimi birləşərək düşmənin başını əzib və ərazi bütövlüyünü bərpa edib.




"Azərbaycanın dünyada nüfuzu və layiqli yeri Vətən müharibəsindəki Zəfərdən sonra daha da möhkəmlənib"

"Azərbaycanın dünyada nüfuzu və layiqli yeri Vətən müharibəsindəki Zəfərdən sonra daha da möhkəmlənib. Bu səbəbdən də Vətən üçün canından keçən qəhrəman oğul və qızların əziz xatirəsi xalqımızın qəlbində əbədi yaşayacaq", deyə vurğulanan fikirlərdə həmçinin qeyd edilib ki, şəhid ailələrinin, qazilərin problemlərinin, sosial-məişət məsələlərinin həlli daim dövlətimizin diqqəti mərkəzindədir.

Natiqlər Vətən uğrunda canlarından keçən insanlara, şəhid ailələrinə, qazilərə, müharibə iştirakçılarına göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə, birinci xanım Mehriban Əliyevaya minnətdarlıqlarını bildiriblər. Sonra şəhid Ramiq Mikayılovun övladı Ağaseyid Mikayılovun müraciəti dinlənilib. Sonda bədii hissə və mükafatlandırma mərasimi keçirilib.

**Beynəlxalq Əlillər Günü bütün dünyada hər il dekabrın 3-də qeyd edilir və bu barədə 1992-ci il dekabrın 14-də BMT Baş Assambleyasının qətnaməsi qəbul olunub. Əlbəttə ki, onun hədəfi - ictimai həyatın bütün sahələrində əlillərin hüquqlarının qorunması və geniş ictimaiyyətin diqqətini onların problemlərinə yönəltməkdir. Statistik məlumatlara əsaslanıb deyə bilərik ki, müasir dünyada təxminən bir milyard əlil yaşayır və onlar cəmiyyətin həyatında tamhüquqlu üzv kimi iştirak etmək üçün fiziki, ictimai-iqtisadi və davranış məhdudiyyətləri ilə üzləşirlər. Ölkəmizdə bu kateqoriyadan olan insanlara həssaslıqla yanaşılır.Azərbaycan BMT Baş Məclisi tərəfindən 2006-cı ildə qəbul edilmiş "Əlillərin hüquqları haqqında" Konvensiyaya qoşulub.**

# 3 dekabr - Beynəlxalq Əlillər Günüdür

## 2021-ci ilin ötən dövründə 50 mindən çox şəxsə əlillik təyin edilib



Ölkəmizdə əlillərin sosial müdafiəsi ilə bağlı həyata keçirilən geniş miqyaslı tədbirlərin əsası Heydər Əliyev tərəfindən qoyulub. İnsan amilini xüsusi diqqətdə saxlayan görkəmli dövlət xadimi, Ümummilli LiderHeydər Əliyevin Azərbaycana rəhbərliyi dövründə əlillərin sosial müdafiəsi, onların cəmiyyətə inteqrasiyası ildən-ilə gücləndirilib. Ölkədə əlillərin sosial müdafiəsi ilə bağlı dövlət proqramı hazırlanıb. Həmin proqramda əlilliyin qarşısının alınması, əlillərin reablitasiyası və sosial müdafiəsi haqqında qanunun bütün müddəaları öz əksini tapıb. Bakıda və regionlarda əlillər üçün reablitasiya mərkəzləri, protez-ortopedik müəssislər yaradılıb.

Əlilliyi olan insanlara Ümummilli Lider Heydər Əliyevin vaxtilə göstərdiyi diqqət və qayğı 2003-cü ildən etibarən Prezident İlham Əliyev tərəfindən yüksək səviyyədə davam etdirilir. "Hər bir vətəndaş bizim üçün qiymətlidir, dəyərlidir. Fiziki cəhətdən qüsurlu insanlar isə xüsusi qayğıya layiqdirlər və biz çalışırıq ki, bunu edək"- deyən dövlət başçısının bu sözləri əlilliyi olan şəxslərin sosial müdafiəsinin daim gücləndirilməsində öz əməli təsdiqini tapır. Son illərdə bu sahədə qanunvericilik bazası daha da təkmilləşdirilir. Cəmiyyətin ümumi inkişaf prosesinə uyğun olaraq, bu kateqoriyadan olan şəxslərin sosial təminatını daha da yaxşılaşdıran, habelə ayrı-ayrı sosial məsələlərin həllinə imkanlar yaradan qanunlar qəbul edilir, eyni zamanda, onların maddi təminatını gücləndirmək məqsədilə yeni təqaüd və müavinətlər təsis edilir, pensiyaların və digər sosial ödənişlərin məbləği mütəmadi artırılır. Azərbaycanda əlil hüquqlarının qorunması, onların sağlamlıqlarının bərpası, sosial rifahının yaxşılaşdırılması, mənzillə təminatı, peşə ixtisasına yiyələnməsi, bir sözlə, tam hüquqlu üzv kimi cəmiyyətə inteqrasiya olunması üçün tədbirlər görülür. Həmin sahələrin hər biri üzrə lazımlı addımlar atılır.





### "QARABAĞ QAZİLƏRİ BİLMƏLİDİRLƏR Kİ, BİZ DAİM ONLARIN YANINDAYIQ, SÖZDƏ YOX, ƏMƏLDƏ"

Bu gün 44 günlük Vətən müharibəsində sağlamlığını itirmiş oğulların sağlamlığının bərpası və normal həyata qayıtmağı üçün dövlətimiz tərəfindən addımlar atılır. Dövlət başçısının çıxışlarının birində bildidiyi kimi "Siz yaralanmısınız. Amma bilin ki, biz sizi sağaldacağıq. Ən ağır yaralanmış hərbçilərimizi həyata qaytaracağıq. Bizim həkimlərimiz indi gecə-gündüz çalışırlar. Bundan sonra da normal həyata qayıtmaq üçün bütün lazımi tədbirlər görüləcək. Bilirsiniz ki, Birinci Qarabağ müharibəsində əlini, qolunu, ayağını itirmiş hərbçilərimiz üçün Mehriban xanımın şəxsi təşəbbüsü və nəzarəti altında müasir protezlər gətirilir. O protezlər ki, insanlar o protezlərdən istifadə edib futbol da oynaya bilərlər. Bütün bunlar təmin ediləcək".



Əlbəttə ki, vəd və əməl hər zaman özünü təsdiqləyib. Müharibənin qurtarmasından ötən müddət ərizində döyüş meydanında sağlamlığını itirmiş hərbçilərin sağlamlığının tam bərpa məqsədi ilə 4-cü nəsil müasir protezlərlə təmin edilib. Vurğulamaq yerinə düşər ki, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın tapşırığı ilə Heydər Əliyev Fondu "2016-cı ilin Aprel döyüşlərində yaralanmış əsgər və zabitlərin yüksək texnologiyalı protezlərlə təmin edilməsi" layihəsini həyata keçirib. Aprel döyüşlərində yaralanmış əsgər və zabitlərimiz Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə Fondun icra etdiyi xüsusi layihə çərçivəsində Almaniya, İslandiya, İngiltərənin dünyada müasir protez istehsalçıları kimi tanınan şirkətlərinin yüksək texnologiyalı məhsulları ilə təmin ediliblər.Qarabağ müharibəsi əlillərinə dövlət qayğısı siyasətinə dəstək məqsədi daşıyan bu layihə çərçivəsində 2018-ci və 2019-cu illərdə daha bir qrup Qarabağ müharibəsi əlili Heydər Əliyev Fondunun dəstəyi ilə yüksək texnologiyalı protezlərlə təmin olunub. Döyüşlərində əlil olmuş şəxslər yüksək texnologiyalı reabilitasiya vasitələri, hərəkət edən son - 4-cü nəsil müasir protezlərlə təmin edilib. "Bax, bunu biz edirik... Biz artıq bir neçə reabilitasiya mərkəzi yaratmışıq və yaralanmış hərbçilərimiz orada öz sağlamlıqlarını bərpa edirlər. Bu, çox genişmiqyaslı, böyük vəsait tələb edən proqramlardır. Ancaq biz bunu edirik və bundan sonra da edəcəyik. Bütün şəhid ailələri, Qarabağ qaziləri bilməlidirlər ki, biz daim onların yanındayıq, sözdə yox, əməldə", - Prezident qeyd edib.

Dövlət başçısının "Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi zamanı əlil olmuş şəxslərin yüksək texnologiyalı reabilitasiya vasitələri ilə təmin olunmasına dair əlavə tədbirlər haqqında" 30 mart 2017-ci il tarixli Sərəncamı bu istiqamətdə mühüm addımın atılmasına imkan verib. Ölkəmizin ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi zamanı sağlamlığını itirmiş qəhrəman Vətən övladları hər zaman diqqət və qayğı ilə əhatə olunub. Onların hər birinin aktiv həyat tərzinin təmin edilməsi istiqamətində ardıcıl tədbirlər görülür.

### YARALANAN 164 HƏRBÇİ 172 ƏN MÜASİR 4-CÜ NƏSİL ELEKTRON PROTEZLƏ TƏMİN EDİLİB

Prezident İlham Əliyevin 8 dekabr 2020-ci il tarixli Fərmanı ilə Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək məqsədilə "YAŞAT" Fondunun yaradılması, Fond tərəfindən qısa müddətdə ciddi işlərin görülməsinə başlanılması nəticəsində davamlı olaraq müharibə əlilləri və şəhid ailələrinin, o cümlədən müharibə veteranlarının sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində həyata keçirilən intensiv tədbirlər artıq öz təsirli nəticələrini verməkdədir. Eyni zamanda, şəhid ailələri və müharibə əlillərinin mənzil və fərdi evlə, müharibə əlillərinin avtomobillə təminatı tədbirləri yüksək səviyyədə davam etdirilir. Əmək və Əhalinin Sosial Müdafiə Nazirliyindən verilən məlumata görə, 2021-ci ilin ötən dövründə artıq 50 mindən çox şəxsə əlillik təyin edilib. Vətən müharibəsinin 2200 qazisinə ölkəmizin ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar əlillik təyinatı aparılır. Prezident İlham Əliyevin tapşırığına əsasən, 2019-2021-ci illərdə Agentliyin 12 reabilitasiya və sosial xidmət müəssisəsi əsaslı təmir olunaraq yenidən qurulub və ən müasir avadanlıqlarla təchiz edilərək istifadəyə verilib. Müasir tələblərə uyğun qurulmuş reabilitasiya sistemi möhtəşəm Zəfərimizlə başa çatan Vətən müharibəsində yaralanmış hərbçilərimizin də yüksək səviyyədə reabilitasiya xidmətləri ilə təminatında mühüm bazadır. Agentliyin reabilitasiya müəssisələrində 1600 qaziyə, bu ilin 11 ayında əlilliyi olan şəxslər, habelə müharibə əlillərindən ibarət 7500-dən çox şəxsə reabilitasiya xidmətləri göstərilib. Yaxın günlərdə isə Qəbələ Uşaq Reabilitasiya Mərkəzi, gələn il isə Şəmkir Uşaq Reabilitasiya Mərkəzi də istifadəyə veriləcək. 2021-ci ilin 11 ayı ərzində Agentlik tərəfindən 8 minə yaxın əlilliyi olan şəxsə 41 mindən çox protez-ortopedik və digər reabilitasiya vasitəsi, o cümlədən 953 mühərrikli təkərli oturacaq verilib. O cümlədən, 1084 müharibə əlilinə 10823 reabilitasiya vasitəsi təqdim edilib. Vətən müharibəsində yaralanmış, aşağı və yuxarı ətrafları amputasiya edilmiş 164 hərbçi 172 ən müasir 4-cü nəsil elektron protezlə təmin edilib. Hazırda dünyada pandemiyanın davam etməsinə, bir çox ölkələrdə iqtisadi-maliyyə çətinliklərinin olmasına baxmayaraq, Azərbaycanda Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu dövlət siyasəti sayəsində heç bir sosial layihə təxirə salınmayıb. Əksinə, ölkəmizdə sosialyönümlü layihələrin sayı genişləndirilib, əhalinin həssas təbəqəsinin sosial məsələlərinin həlli istiqamətində genişmiqyaslı işlər görülür. İcra olunan sosial xarakterli layihələr arasında şəhid ailələri və müharibə əlillərinin sosial şəraitinin daha da yaxşılaşdırılmasına xüsusi diqqət göstərilir. Sağlamlıqlarını torpaq uğrunda itirən Qarabağ əlillərinin mənzil-məişət şəraitləri yaxşılaşdırılır. Əlillərə mütəmadi olaraq yeni mənzillər, avtomobillər verilir.

Onların müalicəsi üçün reabilitasiya mərkəzləri açılır və lazım gələndə isə müalicə olunmaq üçün xarici ölkələrə göndərilirlər. Bir sözlə, dövlətin bu təbəqəyə göstərdiyi qayğı göz önündədir.

***Zümrüd BAYRAMOVA***

# Tofiq Yaqublunun döyülməsi: təxribatdan doğan təxribat!

## Bəs deputatlar necə düşünürlər?



Məlum olduğu kimi, helikopter qəzasında şəhid olmuş hərbçilərin dəfn mərasimi günü AXCP və "Milli Şura" təmsilçilərinin öz kirli siyasi maraqlarını güdərək icazəsiz aksiya keçirmək cəhdləri iflasa uğrayıb. Söz yox ki, bu günə qədər dəfələrlə bənzər təxribatlara əl atan radikal müxalifət ünsürləri daim uğursuzluqlara düçar olmaları ilə yanaşı, öz uğursuzluqlarını pərdələməkdən ötrü ən iyrənc ittihamlarla çıxışlar edir, uğursuzluqlarını başqalarında axtaramağa cəhdlər göstəriblər.

Daha bir fakt budur ki, Əli Kərimli və ətrafının kirli planları daim xarici dairələrdən təşkil edilir, bunu isə sübut edən çoxsaylı faktlar var. Lakin danılmaz fakt budur ki, AXCP və "Milli Şura"nın amalı heç də dövlətçilik maraqlarına xidmət etməkdən ibarət deyil, onların istəkləri sadəcə duru suyu bulandırmaq, həmin bulanmış sudan öz səmərələrinə istifadə etməkdir.

Bir sözlə, sabitliyin pozulmasını "əsas siyasətləri" kimi görənlər bu dəfə daha da həddini aşaraq şəhidlərin dəfn mərasimləri günü belə bir iyrənc addıma getdilər. Əslində isə burada təəccüblü də heç nə yoxdur. 44 günlük müharibədə xalq iqtidarlı-müxalifətli və birmənalı olaraq hakimiyyət ətrafında birləşəndə Əli Kərimli və ətrafı müxalifət partiyalarının birgə bəyanatlarına qoşulmadılar, həmin sənədə imza atmadılar. Eləcə də Şuşa Bəyannaməsini dəstəkləyən bəyanatda da AXCP-nin Müsavatın imzaları olmadı. Bu dəfə isə bütün azərbaycanlılar üçün müqəddəslik və ehtiram faktoru olan şəhidlərimizin dəfn günündə icazəsiz aksiya keçirmələri heç bir çərçivəyə sığıdırıla bilməz.

İlginc məqamlardan biri də budur ki, AXCP-"Milli Şura" cütlüyünün təxribatlarından daha bir təxribatın da doğulması növbəti sualları yaradır. Misal üçün, necə ola bilər ki, "Milli Şura"nın üzvü Tofiq Yaqublu ağır şəkildə döyülür və həmin məsələ dərhal atılır hakimiyyətin üzərinə? Çünki bildiyimiz kimi, Daxili İşlər Nazirliyinin mətbuat ?ad Hacıyev də hadisə ilə bağlı rəsmi şəkildə bildirib ki, şəhərin mərkəzində razılaşdırılmayan aksiyada saxlanılanlar arasında qadın və azyaşlı yoxdur və eləcə də saxlanılan şəxslərin bir qisminə xəbərdarlıq edilərək sərbəst buraxılıb, digərləri barəsində araşdırmalar davam etdirilir. Tofiq Yaqubluya guya polis tərəfindən xəsarət yetirilməsi ilə bağlı iddialara cavab olaraq şöbə rəisi əlavə edib ki, onun bölmədə döyülməsi, xüsusi təzyiqə məruz qalması ilə bağlı iddialar əsassızdır: "Amma bütün bunlara baxmayaraq, qeyd olunan iddialar müvafiq qaydada araşdırılacaq".

Göründüyü kimi, iddialar əsassızdır və əgər belə bir fakt olsaydı, söz yox ki, DİN həmin faktı qeydə alar, bunu edənlərə isə qanunamüvafiq, hətta sərt cəzalar verilərdi. Milli Məclisin deputatları da istisna etmirlər ki, Tofiq Yaqublunun döyülməsi təxribatdır və düşünülmüş şəkildə sabitliyi pozmağa yönəlmiş addımdır.

### Cavid Osmanov: "Tofiq Yaqublunun döyülməsini görənlər bundan, sanki alət kimi istifadə edə biləcəkləri üçün sevinirdilər"

"Helikopter qəzasında şəhid olmuş hərbçilərin ötən gün keçirilən vida mərasimindən sonra bir qrup şəxsin icazəsiz mitinq keçirməsi təxribat xarakteri daşıyır. Həmin mitinq zamanı Tofiq Yaqublunun döyülməsi ilə bağlı kadrlarla tanış oldum. Kadrlarda görünür ki, sanki onun ətrafında olanlar Tofiq Yaqublunun döyülməsini bayram əhval-ruhiyyəsi ilə qeyd edirdilər. Görünür, bunun kökündə təxribat dayanır. İstənilən halda, Azərbaycan hüquqi dövlətdir və məsələ ilə bağlı rəsmi açıqlama artıq verilib. Araşdırılma aparılacaq və bunu törədənlər, əlbəttə ki, cəzasını alacaq. Maraqlısı odur ki, Tofiq Yaqublunun döyülməsini görənlər bundan, sanki alət kimi istifadə edə biləcəkləri üçün sevinirdilər".



SİA xəbər verir ki, bunu Milli Məclisin deputatı, YAP İdarə Heyətinin üzvü Cavid Osmanov sözügedən məsələ ilə bağlı mətbuata fikirlərini açıqlayarkən deyib. Onun sözlərinə görə, həmin şəxslər müqəddəs hissləri belə unudublar: "Lakin şükürlər olsun ki, ötən gün də Azərbaycan xalqı dövləti ilə həmrəylik nümayiş etdirdi və milli birliyini ortaya qoydu".

"Belə bir gündə belə radikal müxalifət onlar üçün müqəddəs heç nə qalmadığını sübut etdilər. Mitinq keçirmək cəhdi belə şəhid olan hərbçilərin ruhuna hörmətsizlikdir", deyən deputat əlavə edib ki, onlar şəhidləri, onların valideynlərini incidərək ümumilikdə bütün Azərbaycan xalqının hisslərinə toxunmaq niyyətində idilər: "Nəticədə, onlar Azərbaycanda qarışıqlıq yaradaraq dövlətin əldə etdiyi diplomatik uğurlara kölgə salmaq istəyirdilər. Bu, düzgün mövqe deyil və onların anti-azərbaycan mövqeyindən xəbər verir".

### Fazil Mustafa: "Şəhidlərin dəfn olunduğu gün icazəsiz mitinqə cəhd etmək nə qədər düşünülmüş təxribatdırsa, həmin tədbirdə qanun pozuntusuna yol vermiş Tofiq Yaqublunun döyülməsi də təxribatdır"

Müxalifətçi deputat, Böyük Quruluş Partiyasının (BQP) sədri Fazil Mustafa da eyni fikirləri bölüşərək bildirib ki, həm icazəsiz aksiyanın keçirilməsi, həm də digər məsələ təxribatdır.



"Şəhidlərin dəfn olunduğu gün icazəsiz mitinqə cəhd etmək nə qədər düşünülmüş təxribatdırsa, həmin tədbirdə qanun pozuntusuna yol vermiş Tofiq Yaqublunun döyülməsi də təxribatdır", deyən Fazil Mustafa onu da bildirib ki, məsələnin günahkarları araşdırılmalı və hüquqi tədbirlər görülməlidir.

***Rövşən RƏSULOV***

# Həsənli kişilərin "boy frend" olduqları ölkədə nə işlə məşğuldur?...



**Artıq bir qayda olaraq xain, satqın sözünü eşidəndə dərhal yada Əli Kərimli, Arif Hacılı, Cəmil Həsənli və daha bir neçə ünsür düşür. Sonuncu gec gəlib ac gələnlərdəndir ki, çoxlu pul qazanmaq üçün özünü daha çox oda-közə vurur. Bu ölkədən vurub o ölkədən çıxır, hər yerdə də bədxahlarımıza xoş gəlsin deyə Azərbaycanda guya demokratiyanın pozulması, insan hüquq və azadlıqlarının pozulması barədə cəfəngiyyatlar uydurur. Pula hərislik bu adamın gözünü elə tutub ki, müqəddəs sayılan hər şeyi satmağa hazırdır. Bir çox faktlar var ki, onlar fikirlərimizdə düzgün olduğumuzu sübut edir. Faktlar açıq göstərir ki, saxtakatlıq Cəmil Həsənlinin köhnə peşəsidir.**

Yadınızdadırsa, prezident seçkiləri ərəfəsində keçirilən teledebatda Əli Əhmədov Cəmil Həsənlini bircə sənədlə ifşa etmişdi. Saxta pensiya aldığına görə. Üstəlik, deyilənlərə görə, Cəmil Həsənli seçkidən sonra da qapı-qapı gəzərək hamıdan xahiş edirmiş ki, həmin pensiyaya dəyməsinlər. Amma saxtakarın xahişi qəbul edilməyib.

2005-ci ildə Əli Kərimlinin sədr olduğu AXCP qərar vermişdi ki, parlamenti boykot edirik və seçkidə sıralarımızdan qalib gələnlər ya təşkilatımızı seçsinlər ya da Milli Məclisi. Cəmil Həsənli həmin vaxt heç tərəddüd etmədən Kərimliyə əl yelləyib partiyadan çıxdı. Daha doğrusu qovuldu. Hətta yaxın çevrələrdə də deyirmiş ki, AXCP-nin quru divarları nəyimə lazımdı, gedib normal maaşımı alaram, başıma çarə qılaram. Əlqərəz, özünü daim ideya adamı kimi təqdim edən bu saxtakar onda da puldan imtina etməmişdir.

Nəhayət. Cəmil Həsənli Milli Məclisin deputatı olduğu vaxtlarda dövlətdən saray kimi bir mənzil alıb. Özü də hədiyyə! Həmin mənzil Vergilər Nazirliyinin keçmiş binasının arxasında yerləşir və mənzil o qədər böyükdür ki, 3 otağı obyekt kimi icarəyə verilib. Bunlardan sonra Həsənli özünü ucuz reklam edərək hər yerdə səsini ucaldır ki, bu dövlətin heç nəyi mənə lazım deyil, Əməkdar müəllim adından imtina edirəm. Çox maraqlıdır ki, Cəmil Həsənli həmin evdən niyə imtina etmir? Daha dəqiqi: adam belə cəsarətlidirsə, şeytanın siyasətdəki prototipi həqiqətən də həyatda belə prinsipialdırsa əvvəlcə elə məhz həmin evdən imtina etməli idi. Etdimi? Xeyr. Edərmi? Qətiyyən etməz. Bu siyasi fırıldaqçı pul, əmlak, obyekt, maddiyyat olan yerdə heç zaman heç nədən imtina eləməz! . Üstəlik, adamın başı xarici kəşfiyyatlara satılmağa, London küçələrində kefcillik eləməyə o qədər qarışıb ki, bəlkə hətta özünün Əməkdar müəllim olduğunu belə unudub, təsadüfən vəsiqə-filan qarşısına çıxıb, xatırlayıb və bu minvalla da yenə publikaya işləməyə, özündən yalançı qəhrəman obrazı düzəltməyə qərar verib. Guya dövlətin verdiyi fəxri addan imtina edib. Bir sözlə, kimlərəsə blef gəlmək istəyir.

Millilikdən tamamilə uzaq düşmüş "Milli Şura" sədri Cəmil Həsənli ilə bağlı ən son xəbər isə onun son vaxtlar Şotlandiyaya sıx səfərlər etməsi, bunun biznes məqsədli olması, daha konkret desək, orada şüşə zavodu açması ilə əlaqədardır. Həmişə Azərbaycanda utanmazcasına aclıqdan, kasıblıqdan danışan Cəmil Həsənlinin belə böyük biznes fəaliyyəti, xərclədiyi külli miqdarda pullar onun gözünün içinə qədər yalan danışmasının sübutudur. Bəyəm kasıb bir şəxs xarici ölkədə yüz minlərlə, milyonlarla pul xərcləyib zavod aça bilər? Həsənlini okeanın o tayına bircə səfəri bir ailənin bir illik dolanışıq xərcidir. Amma bütün hallarda qarışacağımız məsələ deyil. Əgər şotlandlarla işbirliyi "yapırsa", deməli, onlarla "sıcaq" münasibətləri var. "Milli Şura" sədri tez-tez Şotlandiyaya səfər etməkdə aydındır ki, onu oraya biznes məhəbbəti bağlayır. Heç çübhəsiz ki, bizdən fərqli olaraq kişilərin qısa yubka geyinməsini, kişilərin biri-biri ilə evlənməsini və digər eldən dışarı işlər görmələrini də Cəmil Həsənli bilməmiş deyil. Orada ərə getmək istəyən kişilər özlərinə "frend boy" seçirlər, yəni oğlan sevgilisi. Bu, təbii ki, bizə gülməli gəlir, əcaib hesab edirik. Maraqlıdır, görəsən Həsənli orada qazandığı pullarla bərabər onların bu cür adət-ənənələrini də qəbul edirmi? Bu, onun öz seçimidir, qəbul edə də bilər, etməyə də.

Ancaq pul xatirinə Bakıdakı bir ovuc feministi tovlayıb küçələrə çıxarmaları radikal müxalifət başçılarından hər şeyi gözləməyin mümkünlüyünə inandırır...

# Trampdan Baydenə ittihamlar...

Cozef Baydenin hakimiyyətə gəlməsindən sonra ABŞ-ın dünyada nüfuzu tarixi minimuma enib. SİA-nın məlumatına görə, bunu "BG News" telekanlının efirində ABŞ-ın sabiq prezidenti Donald Tramp deyib. D.Tramp ABŞın dünyadakı hazırkı rolu ilə bağlı suala cavabında bildirib: "Mənə elə gəlir ki, Amerika indi bütün tarixinin ən aşağı nöqtəsindədir. Düşünmürəm ki, biz nə vaxtsa belə vəziyyətdə olmuşuq, artıq bizə hörmət etmirlər".

Sabiq prezident bildirib ki, onun dövlət başçısı vəzifəsindən getməsindən sonra Vaşinqtonun təsirinin zəifləməsi fonunda bütün dünyada beynəlxalq vəziyyət gərginləşib: "Bizim Rusiya ilə heç bir problemimiz yox idi, Şimali Koreya lideri Kim Çen Inla da çox yaxşı anlaşırdıq". D.Tramp hazırkı ABŞ prezidentinin yaşıl enerji siyasətini də tənqid edib. Onun sözlərinə görə, "ABŞ-ın düşmənləri" ölkənin neft və qaz ehtiyatlarından istifadə etməsinə mane olur, "Amerika biznesini son dərəcə əlverişsiz vəziyyətə salırlar".



# Vaxtanq Çaraya: “Zəngəzur dəhlizi yaxın 10-15 ildə Gürcüstanı təhdid etməyəcək”

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi” istiqaməti çərçivəsində hazırlanıb.*








**Zəngəzur dəhlizi ilə yaranmış vəziyyət regionda ölkələr arasında həm müsbət, həm də mənfi reaksiya ilə qarşılanır. Rusiya və Türkiyə dəhlizin açılmasında maraqlıdır. Tbilisi isə bundan narahatlıq keçirir, çünki bu dəhliz işə düşəndə Gürcüstanın tranzit əhəmiyyəti azalacaq. Tbilisi Dövlət Universitetinin Təhlil və Proqnozlaşdırma Mərkəzinin direktoru, professor Vaxtanq Çaraya ”Caliber” analitik mərkəzinə müsahibəsində iki ölkə arasındakı iqtisadi əməkdaşlığın səviyyəsi, həmçinin, regionda nəqliyyat kommunikasiyalarının perspektivi ilə bağlı maraqlı fikirlər bildirib. Müsahibəni oxucularımıza təqdim edirik.**

***- Gürcüstan-Azərbaycan iqtisadi əlaqələrinin dinamikası necədir?***

- Ölkələrimiz arasında münasibətlərin dinamikası ümumilikdə müsbətdir. Ölkələr arasında iqtisadi əlaqələr dinamik inkişaf edir, lakin, məsələn, koronavirus pandemiyası səbəbindən turizmin səngidiyi və əvvəlki illərdəki ümumi dinamikadan çıxdığı ayrı-ayrı seqmentlər qalmaqdadır.

Bundan əlavə, Azərbaycandan Gürcüstana xarici investisiyalar da azalıb, prinsipcə, bu, koronavirusdan əvvəl, 2017-ci ildən bəri olub. Çox güman ki, Azərbaycan Gürcüstanın neft və qaz ehtiyatlarının tranzit dəhlizi kimi inkişafı ilə bağlı planlarını artıq həyata keçirib. Çətin ki, yaxın illərdə Azərbaycanın Gürcüstanda investisiya siyasətini əvvəllər, daha dəqiq desək, 2013-2016-cı illərdə inkişaf etdirdiyi dərəcədə inkişaf etdirməsi mümkün olsun.

***- Gürcüstan-Azərbaycan biznes forumunun fəaliyyətini necə qiymətləndirirsiniz?***

- Qonşu və dost ölkələr arasında biznes forumu hətta qlobal pandemiya zamanı belə münasibətlərin qorunmasına kömək edir, biznes strukturlarına yeni birgə imkanlar barədə danışıqlar aparmağa, hazırda çox ehtiyac duyulan iş yerləri yaratmağa imkan verir.

***- Azərbaycanla Gürcüstan arasında enerji əməkdaşlığı hansı səviyyədədir? 2021-ci ildə ölkələr arasında bu sahədə hansı dəyişikliklər baş verib?***

- Hələlik, neft və qaz Azərbaycandan Gürcüstana, daha sonra Türkiyə və Avropaya nəql olunan əsas enerji resurslarıdır. Gələcəkdə elektrik tranzitinin inkişafı da mümkündür.

Bu gün Azərbaycandan Avropaya karbohidrogenlərin mövcud axını Gürcüstan iqtisadiyyatına kifayət qədər müsbət təsir göstərir. Bu proses hər iki tərəf üçün faydalıdır. Gürcüstan Azərbaycandan neft və qazın tranziti üçün əlavə maliyyə və enerji resursları aldığı kimi, Bakı da daha böyük üstünlüklər əldə edir, tranzit Rusiyadan keçsəydi, bu qədər əldə fayda etməyəcəkdi. Bir sözlə, qonşular bir-birini dəstəkləyir və birlikdə Avropa İttifaqı üçün alternativ tranzit dəhlizidir.

Yeri gəlmişkən, Gürcüstan 2024-cü ildə Aİ-yə üzvlük üçün müraciət etməyi planlaşdırır və bununla da gələcək geosiyasi inkişaf planlarını işıqlandırır.

***- Bakı-Tbilisi-Qars dəmir yolunun Gürcüstan üçün perspektivləri necədir?***

- Bakı-Tbilisi-Qars (BTQ) dəmir yolunun perspektivləri birmənalı deyil, çünki bir tərəfdən Gürcüstan ondan praktiki olaraq heç nə almır, Azərbaycanın eyni layihəsi üçün verdiyi borcu ödəməsindən başqa. Eyni zamanda deyə bilərik ki, bu layihə daha intensiv inkişaf etsə maraqlı olardı. Hələlik BTQ gözləntiləri doğrultmayıb və onun dövriyyəsi çox aşağıdır.

Əgər bu yol hesablandığı kimi 10 milyon ton yüklənərsə, o zaman Gürcüstan bu layihədən müəyyən dividendlər alacaq. Yeri gəlmişkən, bu layihə nəzəri cəhətdən Gürcüstan limanlarının rəqibidir, müəyyən yüklərin Gürcüstan dəmir yolundan BTQ ilə daşınacağı təqdirdə limanların daşıdığı yüklər azala bilər.

***- Gürcüstanla Azərbaycan arasında liman sektorunda əməkdaşlıq hansı səviyyədədir?***

- Əgər ümumi tranzit siyasəti ilə bağlı razılığa gəlmək mümkün olarsa və bu marşrutu Avropa ilə Asiya arasında yükləmək istəyənlər olarsa, liman nəqliyyatı hər iki ölkənin iqtisadiyyatında əsaslı artıma çevrilə bilər.

Amma bundan əvvəl onu da qeyd etmək lazımdır ki, Gürcüstanın Anaklia limanının tikintisini başa çatdırmaq lazımdır, çünki mövcud limanlar hətta yerli-regional miqyasda daşımalarda mühüm rol oynamaq imkanları baxımından da kifayət qədər məhduddur. Əgər biz təkcə öz aramızda deyil, həm də ABŞ-ın regiondakı maraqlarını unutmadan Çin və Avropa İttifaqı ilə razılığa gələ bilsək, perspektivlər çox böyükdür.

***- Sizcə, Zəngəzur dəhlizinin açılmasından sonra Gürcüstanın region ölkələri üçün əhəmiyyəti dəyişəcəkmi?***

- Hələlik, bu dəhlizin inkişaf imkanları kifayət qədər qeyri-müəyyəndir. Düşünürəm ki, Azərbaycan və Ermənistan çətin ki, yaxın vaxtlarda bu dəhlizi işə sala bilsinlər və bunu etsələr belə, nəqliyyat çox məhdud olacaq. Ona görə də hesab edirəm ki, yaxın 10-15 ildə bu baxımdan heç bir dəyişiklik Gürcüstanı təhdid etməyəcək.

Amma təbii ki, Gürcüstan ayıq-sayıq olmalı, təklif edə biləcəyi alternativlər axtarmalıdır. Yaxın gələcəkdə Gürcüstan üçün heç bir risk görmürəm, çünki mövcud layihələrin, o cümlədən Cənub Qaz Dəhlizi, BTQ və digərlərinin möcüzəvi şəkildə Zəngəzur dəhlizinə ötürülməsi ehtimalı azdır, Qərbin geosiyasi maraqlarını da nəzərə alsaq bu çətindir.

***- Birgə turizm paketi layihəsindən ölkələr hansı üstünlükləri əldə edəcəklər?***

- Gürcüstan turizm baxımından dünya səhnəsində kifayət qədər möhkəm oyunçudur. Bu layihə həm Gürcüstan, həm də Azərbaycan üçün böyük maraq və yeni imkanlardır. Sizin ölkəniz Gürcüstana gələn və qonşu ölkələrlə maraqlanan əlavə turistlər əldə edə bilər. Gürcüstan da öz növbəsində yeni turizm məhsullarından əlavə cəlbedicilik əldə edə bilər.

Ümumiyyətlə, ümumi paketlər ona görə daha sərfəlidir ki, turistlər çox vaxt Gürcüstana gələndə hər üç Cənubi Qafqaz ölkəsini ziyarət etmək istəyirlər. Əgər bu layihə tam razılaşdırılarsa, o zaman Cənubi Qafqazın bütün ölkələri turistlərin özləri kimi müəyyən dividendlər ala biləcəklər.

Düşünürəm ki, epidemiyadan sonrakı mərhələdə Tbilisi və Bakı ikitərəfli münasibətləri daha da yaxşılaşdırmaq üçün yeni, əlavə resurslar tapa biləcəklər. Amma ən əsası regionda sabitlikdir, bunsuz rifaha nail olmaq çətin olacaq.

**Tərcümə - Elçin Bayramlı**

# Ronaldoya şok!



## Məhkəmədə dindiriləcək

Turin prokurorluğu "Mançester Yunayted"in hücumçusu Kriştiano Ronaldonun dindirilməsini təşkil etməyi planlaşdırır. Bu barədə "La Gazzetta dello Sport" məlumat yayıb. Bildirilib ki, istintaq 36 yaşlı hücumçunun "Yuventus"la maliyyə əməkdaşlığının təfərrüatları ilə maraqlanır.

Daha əvvəl mətbuatda İtaliyanın hüquq-mühafizə orqanlarının portuqaliyalı oyunçunun "Yuventus"la müqaviləsinin maliyyə detallarını öyrəndiyi, ötənilki karantin zamanı oyunçuya maliyyə hesabatlarına daxil etmədən ödənişlər edə biləcəyi barədə məlumatlar yayılmışdı. Klubun nümayəndələri vergidən yayınma və qeyri-qanuni ödənişlərlə bağlı şübhələrə heç bir reaksiya vermirlər.

Xatırladaq ki, daha əvvəl polis istintaq üçün lazım olan sənədləri ələ keçirmək üçün "Yuventus"un bazasında axtarış aparmışdı.

AFFA millimizin baş məşqçisi Canni De Byazi ilə bağlı qərarını verib. Belə ki, AFFA-nın İcraiyyə Komitəsnin dünən keçirilən iclasında italiyalı mütəxəssislə yolların davam etdirilməsi qərarına gəlinib. Onunla noyabrın 30-u başa çatan müqavilə 2022-ci il oktyabr ayına qədər uzadılıb. Baş məşqçi növbəti bir ay ərzində 10 aylıq hazırlıq planını AFFA-ya təqdim edəcək.

Qeyd edək ki, Canni De Byazi 2020-ci ilin avqustundan millimizi çalışdırır.

## AFFA qərarını verdi: De Byazi millidə qalacaq



# Sətəlcəm zamanı daha tez sağalmaq üçün bu ərzaqlara üstünlük verin!



Medikamentoz müalicədən başqa digər müəyyən ərzaq məhsulları da sətəlcəm olan insanların daha tez sağalmasına kömək edə bilər. Sətəlcəm, ağciyər iltihabının təhlükəli həddə çatmasına səbəb olur. Bundan əlavə, bu xəstəlik kəskin respirator distressiya-sindromunun inkişafını sürətləndirir ki, bu da nəticədə COVID-19-un süni tənəffüs tələb edən ciddi forması kimi yaşlı və zəifləmiş insanlar arasında ölüm riskini artırır.

Anlamaq vacibdir ki, ev şəraitində heç bir özbaşına müalicə və hətta dünyanın ən faydalı ərzaq məhsulları sətəlcəmi müalicə edə bilmir. Onun müalicəsi üçün xüsusi müalicə strategiyası və müvafiq dərmanlar tələb olunur. Bununla belə, müəyyən qidaların rasiona daxil edilməsi, ilkin ağır mərhələdən sonra bərpa prosesinin sürətlənməsinə kömək edə bilər.

"MedikForum" saytında yer alan məlumatda deyilir ki, sətəlcəm zamanı hansı adi ərzaq məhsullarının daha tez sağalmağa kömək etməyindən bəhs edir.

Bütöv buğda. B qrupunun vitaminləri ilə və karbohidratlarla zəngin olan kinoa, qəhvəyi düyü, yulaf, arpa orqanizmin bərpa olunmasına kömək edir. Bundan əlavə, orqanizmi enerji ilə təmin edən bu məhsulların tərkibindəki selenyum immun sistemini gücləndirir.

Zülalla zəngin olan qidalar. Pnevmoniyadan əziyyət çəkən insanlar iltihab əleyhinə xüsusiyyətlərə malik olan və zədələnmiş ağciyər toxumalarının bərpasına kömək edə biləcək qidalar: qoz, fındıq, tum, paxla, ağ ət, balıq yeməlidirlər.

Yarpaqlı tərəvəzlər, salatlar və ispanaq tez sağalmaq üçün çox faydalıdır. Onlar iltihabla mübarizə aparan və orqanizmdəki yoluxucu maddələrin konsentrasiyasını azaldan antioksidantların zəngin mənbəyi sayılır.

S vitamini ilə zəngin olan sitrus meyvələri, giləmeyvələr, kivi immunitet sistemini gücləndirir, sətəlcəm zamanı orqanizmin bərpa prosesini sürətləndirir. Onların antioksidant komponentləri xəstəlik törədən mikroorqanizmləri məhv edə bilər.

Yoqurt. Bu sadə məhsul sətəlcəm xəstəliyini yaranmasına səbəb olan probiotiklərlə zəngindir. Qeyd edək ki, yoqurt həmçinin bağırsaqdakı faydalı bakteriyaların sayını artıraraq immun sistemini gücləndirir.



## 2022-ci il üçün bayram günləri açıqlanıb

2022-ci il üçün Novruz, Ramazan və Qurban bayramları günləri müəyyən edilib. Nazirlər Kabinetinin "2022-ci il üçün Novruz, Ramazan və Qurban bayramları günlərinin müəyyən edilməsi haqqında" Qərarına əsasən, martın 20, 21, 22, 23, 24-ü Novruz bayramı, mayın 2, 3-ü Ramazan bayramı, iyulun 9, 10-u Qurban bayramı günləri müəyyən edilib.

Əmək Məcəlləsinin 105-ci maddəsinin 2-ci hissəsinə əsasən həmin günlər iş günü hesab edilmir.

## Metroda paytaxt sakininin mobil telefonu oğurlanıb

Metropolitendə Polis Şöbəsinə noyabrın 24-də "Gənclik" stansiyasında Bakı şəhər sakini Ş.Rəcəbovanın mobil telefonunun oğurlanması barədə məlumat daxil olub.

Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, oğurluq əməlini törətməkdə şübhəli bilinən paytaxt sakini A.Xəlilov polis əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində müəyyənləşdirilərək saxlanılıb. Faktla bağlı rayon polis idarəsi tərəfindən təhqiqat davam edir.



*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 4600**